**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# E.Ə. V-II MİNİLLİKLƏRDƏ AZƏRBAYCAN ƏRAZİSİNDƏ ETNOSİYASİ PROSESLƏR (URMİYA HÖVZƏSİ MATERİALLARI ƏSASINDA)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix


İddiaçı: **Allahverdi Nüsi oğlu Əlimirzəyev**


elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**


**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın qədim dövr tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Vəli Baxşəli oğlu Baxşəliyev**

Profesor doktor
**İrfan Albayrak**

filologiya elmləri doktoru, dosent
**Qətibə Vaqif qızı Quliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akdemiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mehman Sirac oğlu Süleymanov**

## I. Dissertasiyanın ümumi səciyyəsi

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Odlar yurdu Azərbaycan tarixən neçə-neçə qəbiləyə sığınacaq, tayfa birliklərinə vətən, dövlətlərə siyasi meydan olub. Əlverişli coğrafi mövqeyi, yaşayış üçün münasib iqlimi, zəngin təbii sərvəti, rəngarəng flora və faunası ilə seçilən Ata yurdumuz dünyanın ən qədim insan məskənlərindəndir. E.ə. IV minillikdən Ön Asiyanı cənginə alan geniş miqrasiya dalğası Azərbaycandan yan keçmədi və xalqımızın genetik kodunun formalaşmasında rolu olan etnik qrupların, substrat toplumların meydana gəlməsinə təsir göstərdi. Fərqli sivilizasiyaların, dil və dinlərin qovşağında yerləşən bu diyar heç vaxt monoetnik olmayıb. Etnik müxtəlifliyimizdən irəli gələrək Yaxın Şərqin qədim xalqları (şumerlilər, babillilər, aşşurlular, elamlılar, hurrilər və digərləri) tarixi cənub torpaqlarımızda yurd salanların bir qismini "lullu", digərini "quti", başqa bir qismini "turukku" və digər adlarla tanıyırdılar. Mixi yazılı mənbələrdə onlara məxsus yer və şəxs adları, eləcə də qonşuları ilə münasibətləri, iqtisadi əlaqələri, dini dünyagörüşləri, mədəni səviyyələri haqqında xeyli məlumatlar qalıb.

Postsovet məkanının elmi ictimaiyyəti, o cümlədən sıravi azərbaycanlı oxucu, Arazdan cənubdakı tarixi torpaqlarımızda baş verən mühüm siyasi proseslər və etnik dəyişikliklər haqqında ən mötəbər məlumatı almaq üçün indiyədək dünya şöhrətli iki şərqşünas-tarixçinin – İ.M.Dyakonovun və İ.H.Əliyevin eyni adlı "Midiya tarixi" monoqrafiyalarına müraciət etməli olurlar. 1956 və 1960-cı illərdə bu əsərlər işıq üzü görərkən Urmiya hövzəsində yalnız bir arxeoloji abidə – 1948-ci ildə T. Barton Braunun aşkara çıxardığı Göytəpə – elmin tələbləri səviyyəsində öyrənilmişdir. O dövrdə ilk mənbələr yetərli qədər olmadığından hər iki əsərdə Azərbaycanın ən qədim tayfalarının etno-dil mənsubiyyəti məsələsinə ümumi şəkildə baxılmış, xüsusi linqvistik metodoloji yanaşma işlənib hazırlanmadığından Qərb dilçi alimlərinin söylədiyi fikirlərə hər hansı dəyişiklik, düzəliş və ya əlavələr edilməmişdir. Urmiya hövzəsi aborigenlərinin dil mənsubiyyətinin Zaqros-Elam etno-mədəni mühitinə bağlılığı nəzəriyyəsi (1908-ci ildə Georq Hüzing tərəfindən təklif olunub) 1980-ci illərə qədər ehkam kimi qəbul olunurdu. Narrativ mənbələrdə

hövzənin aborigen sakinlərinə aid xeyli sayda coğrafi və şəxs adlarının olmasına baxmayaraq indiyədək onların morfoloji əlamətlərinin və semantik anlamının açılmasına belə ilkin təşəbbüs göstərilməyib. Bunun üçün optimal metod kimi adların tərkibində təkrarlanan komponentləri (söz və morfemləri) seçib ayırmaq və növbəti mərhələdə onların Ön Asiyanın relikt dillərindəki fonetik analoqları ilə müqayisəli təhlilini aparmaq lazımdır. Bu istiqamətdə aparılacaq tədqiqatın əhəmiyyəti ondadır ki, nəticəsi xalqlar və icmalararası qarşılıqlı ictimai-mədəni əlaqələrin yayılma arealına aydınlıq gətirə bilər.

1965-1977-ci illərdə ABŞ-ın, Britaniya krallığının və AFR-in arxeoloqları tərəfindən sistemli qazıntı işlərinin miqyasının genişlənməsi sayəsində Göytəpə hövzənin tarixinin ən qədim mərhələlərinin tədqiqi istiqamətində "etalon abidə" olmaqdan çıxdı. Göytəpənin Eneolit, Tunc və Dəmir dövrlərinə sinxron mədəni təbəqələrin gölün bütün çevrəsi boyunca aşkara çıxarılması ilə bölgənin arxeoloji stratiqrafiyasının dəqiqləşdirilməsinə həlledici töhfə verildi.

Ötən müddət ərzində hövzənin tarixinin öyrənilməsi daha bir nailiyyətlə – yazılı ilk mənbələrin əvvəllər məlum olmayan yeni nümunələrinin üzə çıxarılması ilə əlamətdar oldu. Müxtəlif ölkələrdən olan alimlərin son 70 ildə gərgin əməyi sayəsində bu məlumatlar tərcümə və tədqiq olunmuş, bütövlükdə Ön Asiyanın e.ə. III-I minilliklərdə etnosiyasi mənzərəsi və sələflərimizin bu arealda yeri, əsasən, müəyyən edilmişdir. Son onilliklərdə mənbə bazasının bir qədər də zənginləşməsi, elmi dövriyyəyə yeni mətnlərin daxil edilməsi daha bir əhəmiyyətli sahənin – dövlətçilik və diplomatiya tariximizin ən qədim mərhələsinin öyrənilməsini də prioritet mövzuya çevirdi. Urmiya hövzəsinin qədim sakinlərinin bir-biri ilə qarşılıqlı əlaqələri və qonşuları ilə münasibətlərinin mühüm istiqamətini hərbi qarşıdurmalar və onların yaratdığı siyasi reallıqlar təşkil edir. Əfsus ki, dövlətçilik tariximizin sübh çağının öyrənilməsində durğunluğun yaşandığı bir vaxtda orta və ali məktəb dərsliklərimizdə, eləcə də akademik nəşrlərdə siyasi tariximizin mənşəyi məsələsinə yanaşmada ciddi boşluqlar və ziddiyyətli məqamlar qalmaqdadır. Məsələn, siyasi tariximizin Arattadan hesablanması (e.ə. XXVIII əsr), lullubi, quti və

turukku etnoslarının e.ə. XXII-XVIII əsrlərdə mövcud olmuş siyasi qurumlarının "dövlət" kimi təqdim olunması nə dərəcədə doğrudur, Tunc-Erkən Dəmir dövrləri cəmiyyətlərinin sosial mənzərəsi və istehsal münasibətlərinin xüsusiyyətləri necə xarakterizə olunmalıdır və s.

Bir sözlə, mənbə bazası xeyli zənginləşdiyindən Urmiya hövzəsinin etnosiyasi tarixinin qədim mərhələlərinin tədqiqində adını çəkdiyimiz hər iki fundomental monoqrafiyada istər faktoloji material, istərsə da metodoloji yanaşma baxımından xeyli köhnəldiyini etiraf etməliyik. Digər tərəfdən, o da nəzərə alınmalıdır ki, həmin monoqrafiyalarda istinad olunan ilk mənbələrə son zamanlar yeni düzəlişlər edildiyindən onlara yeni münasibət yaranıb.

Nəhayət, aktuallığını saxlayan mühüm məsələlərdən biri də yazılı mənbələrdəki məlumatların arxeoloji materialla uzlaşmasını təmin etməkdir. Nəticədə hövzə sakinlərinin təsərrüfat həyatı və maddi-mənəvi mədəniyyəti haqqında biliklərimiz daha da zənginləşər. Mövzunun aktuallığı bir də onun sərhəd tanımamasındadır. Belə ki, lullubi, quti, turukku, kaşşu, ukuman, mehri kimi etnik qrupların yayıldığı areal Urmiya gölü hövzəsi ilə məhdudlaşmırdı, daha geniş coğrafiyanı əhatə edirdi. Yazılı ilk mənbələr onların İran dağlıq yaylasının, Mesopotamiyanın və Anadolunun həmhüdud bölgələrində də məskunlaşdıqlarından və xırda siyasi qurumlarda, dağınıq icmalarda təmsil olunduqlarından xəbər verir. Bu baxımdan tədqiq olunan mövzu Azərbaycanla regiondakı dövlətlərin (Türkiya, İran, İraq, qismən Suriya) ortaq tarixinin ayrılmaz səhifəsini təşkil edir.

Təqdim olunan dissertasiya işi elmin son nailiyyətlərini nəzərə almaqla hövzə tarixinin aktual problemlərinin tədqiqinə həsr olunub.

Dissertasiyada əksini tapan ictimai-siyasi hadisələr və etnomədəni dəyişikliklər uzun dövrü əhatə edir. Mövzumuzun xronoloji çərçivəsi Üst paıeolit dövründən e.ə. 1000-ci ilədək baş verən ictimai hadisələrin tədqiqi ilə məhdudlaşır. Bununla belə, hövzə sakinlərinə məxsus dil materiallarının (əsasən yer və şəxs adlarının) zaman-zaman necə dəyişdiyini izləmək, hansı fonetik təsirlərə məruz qaldıqlarına aydınlıq gətirmək üçün e.ə. I minilliyin Aşşur salnamə ədəbiyyatına müraciət etməli olmuşuq.

Regionun tarixi coğrafiyasının öyrənilməsi 1839-cu ildən

başlayır səyyahlar, eləcə də arxeoloqlarla (H.Roulinson, F.Kosto, J. de Morqan və başqaları) bağlı olub. Onlar bölgədəki qayaüstü barelyefləri, onları müşayiət edən mixi yazılı kitabələrin eskizlərini çəkmişlər. Toplanan illüstrativ materialın elmi təhlili XIX əsrin sonlarında fransız şərqşünası abbat (katolik rahibi) Pyer Vinsent Şeyl tərəfindən həyata keçirilmişdir.[1] A.Billerbek İraq Kürdüstanına səyahət edərək müasir toponimlərlə Aşşur-Babil mətnlərində xatırlanan yer adlarının müqayisəsini həyata keçirmişdir.[2] 1920-ci illərdə L.Berger, K.Edmond, E.Herzfeld, E.Şpayzer və başqaları bölgənin tarixi coğrafiyasının öyrənilməsinə öz töhfələrini vermişlər.[3]

1936-cı ildə A.Steynin Urmiya gölündən cənubda yerləşən qədim məskənlərdə apardığı kəşfiyyat xarakterli işlər, 1940-cı ildə isə İran Arxeoloji idarəsi tərəfindən həyata keçirilən qazıntılar əhəmiyyətli nəticələr vermədi.[4] 1948-ci ildə gölün qərb sahilində yerləşən Göytəpədə (Urmiya şəhərindən 7 km cənub-şərqdə) T.Barton-Braunun rəhbərliyilə Britaniya arxeoloji cəmiyyəti tərəfindən təşkil edilmiş ekspedisiya qazıntı işləri aparmışdır. Burada e.ə. V minillikdən başlayaraq b.e. VIII əsrinədək uzun bir dövrü əhatə edən mədəni təbəqələr aşkar olunmuşdur.[5]

1960-ci illərdə Çikaqo Şərqşünaslıq İnstitutunun əməkdaşları Robert Breydvudun rəhbərliyi ilə Kermanşah rayonunda apardıqları

---

[1] Morgan, J. de., Scheil, V. Les deux stèles de Zohab / Recueil de travaux relatifs à la philologie et à l'archéologie égyptiennes et assyriennes. Quatorzieme année (Publie sous la direction de G. Maspero). / J. de Morgan, V. Scheil.–Paris : Émile Bouillon Editeur, – 1893. – s.100-106 ; Scheil V. Textes élamites-semitiques (premiére série) / Mémoires de la Délegation de Perse. Tom II. / V. Scheil. – Paris: Libraire Ernest Leroux, – 1900.– 135 p.+24 planches.

[2] Billerbeck, A. Das Sandschak Sulaimania und dessen persische Nachbarlandschaften Babylonuschen und Assyrischen Zeit. / A.Billerbeck. – Berlin: Verlag von Reuther und Reichard, – 1898.

[3] Speiser, E. Southern Kurdistan in Annals of Ashurnasirpal and today // Annals of the American Schools of Oriental Research, – New Haven, – 1928/1929, Vol. VII, – pp. 1-41; Herzfeld, E. The Persian Empire. / E. Herzfeld – Wiesbaden: Franz Steiner Verlag, – 1968, – p.154.

[4] Stein, A. Old Routes of Western Iran. / A.Stein.–London: Macmillan and CO., Limited. – 1940. – Pp. XXVIII + 432 + 31 planches.

[5] Brown, T.B. Excavations in Azerbaijan, 1948. / T.B.Brown. – London: J. Murray, – 1951. – 280 p.

sistemli qazıntı işləri nəticəsində İran yaylasında istehsal təsərrüfatına keçid dövrünün ən qədim yaşayış məskənlərini (Gəncdare, Təpə Asiab, Təpə Quran, Təpə Sarab və s.) üzə çıxarmışlar.[6] Buradan əldə olunan tapıntılar Urmiya hövzəsində məskunlaşmanın ilkin mərhələsini, istehsal təsərrüfatının formalaşma prosesini izləməyə də imkan verir.

1957-1968-cı illər ərzində Pensilvaniya Universitetinin Arxeologiya və Antropologiya Muzeyinin əməkdaşları "Həsənli layihəsi" çərçivəsində Solduz-Uşnu vadisində (Urmiya gölündən cənubda) sistemli arxeoloji tədqiqatlar aparmışlar. E.ə. VI minilliyə qədər mövcud olmuş mədəniyyətlərin ardıcıl stratiqrafiyasını izləməyə imkan verən Həsənli kəndindəki (Urmiya gölündən 50 km cənubda) təpəlik 27,5 metr dərinliyədək qazılmışdır. Həsənli tapıntıları qonşuluqdakı qədim yaşayış məskənlərində aşkar edilmiş arxeoloji materiallarla tamamlanır. 1966-1968-ci illərdə Robert Dayson və Oskar Maskarellanın rəhbərliyi altında Pensilvaniya Universiteti ilə Metropolitan İncəsənət Muzeyinin əməkdaşları Həsənlidən 25 km qərbdə yerləşən Dinhətəpədə arxeoloji qazıntılar aparmışlar. Orta Tunc dövrünə aid IV A-C təbəqələrindən (e.ə. 1600-1450-ci illər) əldə olunan saxsı qab məmulatı yalnız "Habur" tipli keramika ilə təmsil olunub. Həsənlinin IV və V təbəqələrinə sinxron olan Dinhə IV D-III təbəqələrindən (e.ə. 1450-1000-ci illər) tikili qalıqları və Naxçıvanın müvafiq dövrü üçün səciyyəvi olan boya naxışlı qablar tapılıb.[7]

C.Barneyin rəhbərliyi ilə Təbrizdən təqribən 30 km cənub-qərbdə yerləşən Yanıqtəpədə aparılan arxeoloji qazıntılar e.ə. V-II

---

[6] Braidwood, R. The Iranian Prehistoric Project / R.Braidwood, B.Hove, C.Reed. – Science: Chicago, – 1961, Vol. 133, November, – pp. 2008-2010.

[7] Dyson, R.H., Young, T.C. The Solduz Valley, Iran: Pisdeli Tepe // Antiquity, – 1960, Vol. 34, pp. 19-28; Hamlin C. Dalma Tepe // Iran; London, – 1975, Vol. XIII, – pp.111-129; Dyson, R.H. Problems of Prehistoric İran as seen from Hasanlu // Journal of Near Eastern Studies: Chicago, – 1965. Vol. XXIV, № 3, – s.193-217 Muscarella, O.W. Excavations at Dinkha Tepe, 1966 / Bulletin of the Metropolitan Museum: New York, – 1968, November, – pp. 187-196; Hamlin, C. The Early Second Milleniun Ceramic Assemblage of Dinkha-Tepe // Iran: London, –1974, 12, – pp.125-153.

minilliyin mədəni təbəqələrinin üzə çıxarılması ilə əlamətdar olmuşdur. Onun rəhbərliyi ilə 1968-1978-ci illərdə Urmiya gölündən şimal-qərbdə, Salmas vadisində yerləşən Həftəvantəpədə aparılmış qazıntılarda Eneolitin sonlarından e.ə. 500-cü ilə qədər uzun dövrü əhatə edən maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır.[8]

1972-1978-ci illərdə K.Kramerin, bir qədər sonra A.Lippertin və P.Kalmeyerin başçılığı ilə Avstriya arxeoloji ekspedisiyası Kordlartəpədə (Urmiya şəhərindən 13 km şərqdə) qazıntılar apararaq Tunc dövrünə aid maddi mədəniyyət nümunələri aşkara çıxarmışlar.[9]

Mövzunun tədqiqində başlıca ilk mənbə Yaxın Şərqin yazılı abidələridir. Mixi işarələrlə tərtib olunmuş bu abidələr dil müxtəlifliyi, janr rəngarəngliyi və təyinatının xarakteri ilə fərqlənirlər. Tunc və Erkən Dəmir dövrlərində Urmiya hövzəsində məskunlaşmış etnoslar haqqında informasiya tipoloji baxımdan bir-birindən fərqlənən Şumer, Akkad (Aşşur və Babil dialektlərində), Elam dillərində tərtib olunub. Analoji material, az da olsa, het və hurri dillərində yazılmış mətnlərdə də mövcuddur. Tədqiqatımızda istifadə olunan Şumer-Babil tipli mixi yazılı kitabələr e.ə. XXIV-VII əsrlərdə tərtib olunsalar da, onlarda daha əvvəlki dövrlər haqqında da məlumatlar var.

Janr xarakteri baxımından mövzumuzla əlaqəsi olan yazılı ilk mənbələri 6 qrup üzrə təsnifləndirmək olar: hərbi-siyasi, iqtisadi, bədii, dini-mifoloji, astroloji, leksikoloji. Ilk iki qrup "tarixi mətnlər" kateqoriyasına aid edilir, çünki onların əksəriyyətində real situasiya əks olunub, digər kateqoriyalardan olan mətnlər isə təsvir etdikləri olaydan xeyli sonra tərtib olunduqlarından ideoloji təsirə məruz qalmışlar.

---

[8] Burney, C.A. The Excavations at Yanik Tepe, Azerbaidjan, 1962. Third Preliminary Report // Iraq, – London, – 1964, Vol. 26, – pp. 54-62; Burney, C.A. The Fifth Season of excavations at Haftavan Tepe. Brief Summary of the Principal Results / Procedings of the IV th Annual Symposium on Archaeological Research in Iran, 1975. – Tehran, – 1976, – pp. 257-271.

[9] Calmeyer, P. Kordlartepe // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. – Berlin, Leipzig, New York, – 1981, Band VI, – ss. 212-213.

E.ə. III minilliyin mənbələri ötən əsrin əvvəlindən başlayaraq bir neçə dəfə nəşr olunublar.[10] Bu dövrün tarixi məzmunlu mətnlərini 4 qrupa ayırmaq olar; onların ikisi zamanında tərtib olunub. Mətnlərin digər qrupu (bədii kompozisiyalar, ithaf dublikatları və "il adları") Qədim Babil dövrünün məhsuludur; bununla belə, onlar yazılarkən, şübhəsiz ki, hansısa orijinal mətnlərdən (onlar dövrümüzə çatmayıb) istifadə olunub.

Akkad dövlətinin imperiya qurmaq siyasətindən irəli gələrək e.ə. XXIII əsrdən etibarən hərbi konfliktləri əks etdirən mətnlərin sayı kəskin şəkildə artır. Bu nümunələrdən ən möhtəşəmi Naram-Suenin lullubilər üzərində qələbəsinə həsr olunmuş steladır. 2 m x 1 m ölçüsündə əsrarəngiz sənət nümunəsi olan bu abidə 1898-ci ildə Jak de Morqanın rəhbərliyi ilə fransız arxeoloqlarının İranın Şuş şəhərində (qədim Elam dövlətinin siyasi-ideoloji mərkəzi Suz; İranın cənub-qərbində, Xuzistan vilayətində yerləşir) apardıqları qazıntılarda aşkara çıxarılmışdır.[11]

Akkad imperiyasının süqutundan sonra Mesopotamiyanin cənubunda yaranan siyasi vəziyyət haqqında məlumat verə biləcək ən mötəbər mənbə Şumer hökmdar siyahılarıdır. Bizə müxtəlif variantlarda çatan bu siyahılar, əsasən, şumerlilərin siyasi səhnəni

---

[10] Thureau-Dangin, F. Sumerisch und akkadische Königsinschriften. / F. Thureau-Dangin, – J.C. Hinrichs'sche Buchhandlung, 1907. 275 s.; Gadd, C., Legrain, L. Royal İnscriptions / Ur Excavation Texts.Vol. I, London, 1928; Barton, G.A. Royal İnscription Sumer and Akkad. / G.A.Barton, – New Haven, 1929; Frayne, D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol. 4. Old Babylonian Period (2003-1595 BC). / D.R. Frayne. – Toronto, Buffalo, London, – 1990. – 853 p; Frayne, D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol.2, Sargonic and Gutian Periods (2334-2113 BC). / D.R. Frayne. – Toronto, Buffalo, London, – 1993. – 337 p.; Frayne, D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol. 3/2. Ur III Period (2112-2004 BC). / D.R. Frayne. – Toronto, Buffalo, London, – 1997. – 489 p.; Frayne, D. The Historical Correlations of the Sumerian Royal Hymns (2400-1900 BC). Ph. D. Dissertation. / D. Frayne. – Yale University, – 1981; Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften der Dritten Jahrtausends v. Chr. / I. Gelb, B. Kienast. – Stittgart: Franz Steiner Verlag, – 1990. – Ss. XVI + 434 və s.

[11] Əlimirzəyev, A. Anubanini // – Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, – 2012, № 1, – s.100.

tərk etdikləri ilk onilliklərdə (e.ə. XX əsrin birinci yarısı) tərtib olunub. Şumer dilində tərtib olunmuş sülalə siyahılarının unikallığı ondadır ki, müxtəlif dini mərkəzlərdə və fərqli variantlarda hazırlandıqlarından onlardakı məlumatlar bəzən üst-üstə düşmür. Quti şahları haqqında məlumatlar hökmdar siyahılarının "$P_4$", "$L_1$", "G", "S", "$Su_{3+4}$" (Suzdan tapılan gil lövhənin 2 fraqmenti), "M" və digər variantlarında əks olunub. Elmə məlum sonuncu variant ("USKL") Təll-Mükəyyardan (şumerlilərin sonuncu siyasi mərkəzi Ur şəhəri) aşkara çıxarılıb. Ən dolğun informasiya siyahıların nisbətən salamat vəziyyətdə olan və mütəxəssislər arasında "Oksford prizması" adı ilə tanınan variantında qalıb. Dördguşəli silindr formalı gil əşya üzərinə həkk olunan siyahı ilk dəfə 1923-cü ildə S.Lenqdon tərəfindən öyrənilib. Hökmdar siyahılarının əksəriyyəti T.Yakobsen təəfindən tədqiq olunub.[12]

Qutilərin İkiçayarasının cənubunda ağalığının xronologiyasının təyin olunmasında mühüm dublikat mətnlərindən biri elm aləmində "Erridupizirin kitabələri" adı ilə tanınır. İthaf xarakterli bu dublikat quti şahının şumerlilərin dini mərkəzi Nippurda tanrı Enlilə ithaf etdiyi 3 heykəlin üzərindəki mətnlərdən köçürülüb. 20 fraqmentdən ibarət olan bu mətnlər XIX əsrin sonlarında Pensilvaniya Universitetinin maliyyə dəstəyi və Herman Hilprextin rəhbərliyi ilə Nippurda aparılan arxeoloji qazıntılarda aşkara çıxarılmışdır. 1989-cu ildə İzrail tədqiqatçısı Rafael Katşer Erridupizirin kitabələrinin bütün fraqmentlərini tərcümə etmişdir; kitabələr bir neçə dəfə nəşr olunub.[13]

Orijinal mətnlər sırasında Şumerin şəhər başçılarının müasirləri olan quti hökmdarları haqqında xəbər verən kitabələr xüsusi yer tutur. Bu qrupa Umma şəhərinin başçıları

---

[12] Jacobsen, T. The Sumerian King List. / T. Jacobsen, – Chicago: Chicago University Press, – 1939. – 304 p.; Michalowsky, P. History as Charter some observations on the Sumerian King List // Journal of American Oriental Society. – Boston, – 1983, Vol. 103, – pp.237-248.

[13] Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften..., ss.303, 316; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat / Təsisçilər: R.S. Məlikov, A.N. Əlimirzəyev. – Bakı: Turxan, – 2014, – s.25-29.

Nammahninin və Luqalannatumun mətnləri aiddir.[14]

Tarixi mətnlər qrupuna daxil olan ilk mənbələrdən etibarlılıq dərəcəsinə görə iqtisadi məzmunlu təsərrüfat sənədləri öndə gedir. Akkad imperiyasının hərbi-siyasi yüksəlişi mərhələsində dövlət və cəmiyyət üçün daha səmərəli olan uçot-hesabat sənədlərinin mərkəzləşmiş qaydada ayrı-ayrı təsərrüfat subyektlərinin arxivlərində hazırlanması praktikası geniş yayılmışdır. Bu ənənə qutilərin siyasi hakimiyyəti zamanı həm Şumer şəhərlərində, həm də Mesopotamiyanın periferiyalarında (Suzda, Qasurda) davam etdirilirdi.[15]

Dublikat sənədlərin digər qrupuna müxtəlif əlamətdar hadisələrlə (məsələn, hərbi qələbələr, saray və ya məbəd tikintisi, diplomatik nikahlar və s.) əlaqədar rəsmi qaydada təsis olunan və

---

[14] Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften..., s.296-297.

[15] Scheil, V., Legrain L. Textes élamites-semitiques (cinquiéme sèrie) / V. Scheil, L. Legrain – Mémoires de la Mission Archéologique de Perse. Paris: Libraire Ernest Leroux, –1913. – Tom XI, 77, 80, 81 №-lı mətnlər; Meek, T.J. Excavations at Nuzi. Vol. III. Old Akkadian, Sumerian and Cappadocian texts from Nuzi / T.J. Meek – Cambridge: Harvard Semitic Series – 1935. – LIX p.+XCIII plates.; Barton, G. Sumerian Business and Administrative Documents from the Earliest Times to the Dynasty of Akkad / G. Barton, – Publication of Babylonian Section. Published by the University Museum. – Philadelphia, – 1915. – Vol. IX, № 1, – 33 p.+LXXIV plates.; Gelb, I.J. Old Akkadian Inscriptions in Chicago Natural History Museum. Texts of Legal and Business Interest. / I.J. Gelb. – Chicago, Fieldiana: Anthropology, – 1955, Vol 44, – 180 p. + LX plates.; Gelb, I.J. Sargonic Texts from the Diyala Region. Material for the Assyrian Dictionnary. Vol. 1. / I.J. Gelb. – Chicago: University of Chicago Press, – 1952. – Pp. VIII+251.; Gelb, I.J. Sargonic Texts in the Ashmoleon Museum, Oxford. Material for the Assyrian Dictionnary. Vol. 5. / I.J. Gelb. – Chicago: University of Chicago Press, – 1970. – Pp.XXX+150+46 plates.; Gelb, I.J. Sargonic Texts in the Louvre Museum. Material for the Assyrian Dictionnary. Vol. 4. / I.J. Gelb. – Chicago: University of Chicago Press, – 1970. – Pp. XXIV+143+25 plates.; Genouillac, H. Inventaire des Tablettes de Tello conserves aus Musee Imperial Ottoman. Tom 3. Textes de l'époque d'Ur. Deuxieme partie. / H. Genouillac, – Paris : Ernest Leroux editeur, – 1912; Genouillac H. La Trouvaille de Dréhem. / H. Genouillac – Paris : Libraire Paul Geuthner, – 1911. – Pp. VIII+21+LI plates.; Yıldız, F., Gomi,T. Die Puzriš-Dagan-Texte der Istanbuler Archāologischen Museum. Teil II, № 725-1379. / F. Yıldız, T. Gomi. – Stuttgart, Wiesbaden: Franz Verlag. – 1988 və s.

“il adları” kimi tanınan mətnlər daxildir. Bu sənədlər Akkad sülaləsinin nümayəndələri I Sarqonun, Naram-Suenin və Şarkalişarrinin hakimiyyət dövrləri ilə bağlı tərtib olunub; onlar informasiyanın lakonikliyi ilə səciyyələnirlər.[16]

E.ə. III minilliyə aid mənbələr qrupunda yeganə elamdilli mətn Hişebrasini ilə Naram-Suen arasınsda bağlanan müqavilə xüsusi əhəmiyyətə malikdir.[17]

Şumer şəhərlərində və Həsənli kəndində aparılan arxeoloji qazıntılar zamanı quti, lullubi və Babilistanın kaşşumənşəli şahlarının şəxsi əşyaları tapılmışdır.

E.ə. II minilliyin ikinci yarısından tarixi mənbələr qrupuna Aşşur-Babil mixi yazıları da əlavə olunur. Mövzumuzla bağlı Aşşur-Babil kitabələrinin elmi nəşri Qərbi Avropa şərqşünasları tərəfindən iki dəfə həyata keçirilib. Daha mükəmməl olan birinci nəşrlər zamanı (1860-1930-cu illər) kitabələr avtoqrafik variantları ilə verilirdi.[18] Həmin nəşrlərə əsaslanan və mövzumuzla əlaqəsi olan mətnlərin rus dilinə tərcümələri (transliterasiyasız) 1951-ci ildə İ.M.Dyakonov tərəfindən həyata keçirilib.[19]

1970-ci illərdən başlayaraq Aşşur və Babil hökmdarlarının kitabələrinin, II dünya müharibəsindən sonra tapılan fraqmentlər də

---

[16] Ungnad, A. Datenlisten / Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. – Berlin, Leipzig, New York, – 1931, Band 2, – ss. 131-196.

[17] Hinz W. Elams Vertrag mit Naram-Sin von Akkade. / Zeitschrift für Assyriologie. Neue Folge – Berlin, – 1967, № 58, – ss. 66-96.

[18] Schorr, M. Urkunden des Altbabylonischen Zivil- und Prozessrechts. / M. Schorr. – Leipzig: J.-C. Hinrichs’sche Buchhandlung, – 1913. – 618 s.; Schroeder, O. Keilschrifttexte aus Assur. Historischen Inhalts. Zweites heft. / O. Schroeder. – Leipzig: J.C. Hinrichs’sche Buchhandlung, – 1922. – 126 s.; Winckler, H. Die Keilschrifttexte Sargons. T. I. / H. Winckler. – Leipzig: Verlag von Eduard Pfeifer, – 1889. – 244 s.; Luckenbill, D.D. Ancient Records of Assyria and Babylonia. Vol. II. Historical records of Assyria from Sargon to the end. / D.D. Luckenbill, – New York: Greenwood Press publishers, – 1968. – 504 p.; Waterman, L. Royal Correspondense of the Assyrian Empire. Vol.1-4. / L. Waterman. – Ann Arbor, – 1930-1934; Thureau-Dangin, F. Recueil des Tablettes Chaldéennes. / F. Thureau-Dangin. – Paris: Ernest Leroux, – 1903. – Pp. XV+155 və s.

[19] Дьяконов, И.М. Ассиро-вавилонские источники по истории Урарту / И.М. Дьяконов. – Вестник древней истории – Москва – 1951, №2, – с. 255-356.

nəzərə alınmaqla, yeni nəşrinə (avtoqrafik variantlarsız) start verilir. Müxtəlif ölkələrdən olan şərqşünasların qoşulduğu bu qlobal layihədə iştirak edənlər sırasında A.Greysonun xidmətlərini qeyd etmək olar.[20]

1933-1939, 1947-1948-ci illərdə fransız arxeoloqlarının Suriyanın Təll-Həriri şəhərciyində (qədim Mari şəhər-dövləti), 1957-ci ildə Harold İqnoltun rəhbərliyi ilə Danimarka arxeoloqlarının Raniyə ovalığında yerləşən Təll-Şemşara təpələrində (qədim turukku şəhəri Şuşarra) apardıqları qazıntılarda e.ə. II minilliyin birinci yarısı ilə tarixlənən arxiv sənədləri tapılmışdır. Bu arxivlərin siyasi məsələlərə həsr olunmuş məktubları Aşşur-Turukku münasibətlərinin öyrənilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Mari sənədləri I Şamşi-Adadın, onun oğulları İşme-Daqanın və Yasmah-Adadın məktublarından ibarətdir. Şuşarra məktubları isə bu şəhərin canişini olan Kuvari adlı şəxsin Aşşur məmurları və xəfiyyələri ilə yazışmalarını əks etdirir. Bu məktublarda qeydə alınan yer və şəxs adları turukkuların etnik kimliyinə aydınlıq gətirə bilən linqvistik materialı xeyli dərəcədə zənginləşdirmişdir.[21] Turukkuların xatırlandığı mətnlərin bir neçəsi

---

[20] Grayson, A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Assyrian Rulers of the Third and Second Millennium BC (to 1115 BC). Vol. 1. / A.K. Grayson – Toronto, Buffalo, London, – 1988. – 355 p.; Grayson, A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millenium BC (1114-859 BC). / A.K. Grayson – Toronto, Buffalo, London, – 1991. – 425 p.; Grayson, A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 3. Assyrian Rulers of the Early First Millenium BC (858-745 BC). / A.K. Grayson – Toronto, Buffalo, London, – 1995. – 265 p.; Grayson, A.K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 3. Assyrian Rulers of the Early First Millenium BC (858-745 BC). / A.K. Grayson – Toronto, Buffalo, London, – 1995. – 265 p.

[21] Dossin, G. Correspondance de Šamši-Adda et de ses fils / Archives Royales de Mari. Tom I. / G. Dossin. – Paris: Imprimerie nationale, – 1950, 16, 69 №-lı mətnlər; Jean, C.-F. Lettres diverses / Archives Royales de Mari. Tom II, / C.-F. Jean, – Paris: Imprimerie nationale, – 1950, 40, 63, 83 №-lı mətnlər; Dossin, G. Correspondance de Šamši-Adda et de ses fils (suite) /Archives Royales de Mari. Tom IV. / G. Dossin. – Paris: Imprimerie nationale, – 1951, 21-25, 41, 45, 52, 76, 78, 79 №-lı mətnlər və s.; Lossoe, J. The Shemshara Tablets. A Preliminary Report. / J. Lossoe, – Köbenhavn: Meddelelser udgivet af Det Kongelige Danske

müəyyən ixtisarlarla dilimizə də tərcümə olunmuşdur.[22] Etimoloji araşdırmalar apararkən Urartu kitabələrində qeydə alınmış şəxs və coğrafi adlar da cəlb olunub.[23]

E.ə. III minilliyin hərbi-siyasi mənzərəsini əks etdirən ilk mənbələrin böyük əksəriyyətini bədii-mifoloji əsərlər təşkil edir. Bu kateqoriyadan olan mənbələrdən “Enmerkar və Aratta hökmdarı” (637 sətir), “Enmerkar və Ensuhkeşdanna” (və ya “Uruk və Aratta”: 282 sətir), “Luqalbanda və Hurrum dağı” (və ya “Luqalbanda dağın zülmətində”, “Luqalbanda dağın mağarasında”: 376 sətir) və “Luqalbanda və Anzud quşu” (və ya “Luqalbanda və Enmerkar”: 417 sətir) adlı Şumer dastanları e.ə. XXVIII əsrin sonlarında yetkin bir dövlət kimi fəaliyyət göstərən Arattada baş verən ictimai-siyasi hadisələrdən xəbər verir.[24]

Naram-Suenin şimaldakı tayfalarla müharibələri bir-birilə üzvi surətdə bağlı olan didaktik eposlarda, daha dəqiq desək, əfsanələrin sonralar tərtib olunmuş (bəlkə də orijinallardan üzü köçürülmüş) dublikatlarında əksini tapıb. Babillilər bu seriyadan olan bədii kompozisiyaları nāru (yəni “daş əsər”) adlandırırdılar. Bu qrupa aşağıdakı eposlar daxildir:

1. Elm aləmində “Kuta əfsanəsi” adı ilə tanınan eposun ona yaxın variantı mövcuddur. Bu ədəbi kompozisiyanın Almaniya, Britaniya, Türkiyə, İsveçrə və digər dövlətlərin muzeylərində

---

Videnskabs Selskab, – 1959. – 103 p.; Eidem, J. The Shemshāra Archives. 2. The administrative Texts. / J. Eidem. – Kopenhagen: The Royal Danish Academy of Sciences and Letters, – 1992. – 165 p.; Eidem, J., Lossoe, J. The Shemshara Archives 1. The Letters. / J. Eidem, J. Lossoe. – Kopenhagen: The Royal Danish Academy of Sciences and Letters, – 2001. – 185 p+88 plates.

[22] Mirzəyev, M. Qədim Azərbaycan tayfalarının Aşşur hərbi ekspansiyasına qarşı mübarizəsi tarixindən (e.ə. XVIII əsrin 1-ci yarısı) // – Bakı: AMEA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), – 2005, № 5-6, – s.38-39; Ağasıoğlu, F. Azər xalqı. / F. Ağasıoğlu. - Bakı: Çaşıoğlu, – 2000, s.40-46; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr..., s.34-35, 43-47.

[23] Дьяконов, И.М. Урартские письма и документы. / И.М. Дьяконов – Москва: Издательство АН ССР, – 1963. – 144 с.; Меликишвили, Г.А. Урартские клинообразные надписи. / Г.А. Меликишвили – Москва: Издательство АН СССР, – 1960. – 504 с.

[24] Vanstipout, H. Epics of Sumerian Kings.The Matter of Aratta. / H. Vanstipout. – Atlanta: Society of Biblical Literature, – 2003, pp.23-166.

saxlanan nüsxələri 1880-ci illərdən tədqiq olunur. Təkcə standart Babil qrafikası ilə tərtib olunmuş əlyazmaların 8 variantı məlumdur; onların 6-sı indiki Qoyuncuq kəndindən (qədim Neynəva; e.ə. I minillikdə Aşşur dövlətinin paytaxtlarından biri), biri Sultantəpədən (Türkiyənin cənubunda), digəri Təll-İnqarradan (qədim Şumer şəhəri Kişin kvartalı) tapılıb. Eposun variantlarından biri I Babil sülaləsi dönəmində (e.ə. XVIII-XVII əsrlər) iki gil lövhə üzərinə yazılıb. Bu Qədim Babil variantı elmi ədəbiyyatda bəzən lövhələrdəki ilk ifadəyə uyğun olaraq "[mücrünü aç,] daşdakını oxu" adlanır. Digər variant kaşşuların Babilistanda hakimiyyəti zamanı (Orta Babil dövründə) tərtib olunub. Poemanın nisbətən yaxşı qalmış ən qədim variantı Babilin yaxınlığındakı Kuta şəhərində (indiki Təll-İbrahim) tərtib olunduğundan (e.ə. XIX əsr) bu əfsanəni elm aləmində bəzən "Kuta əfsanəsi" (yanlış olaraq "Quti əfsanəsi") adlandırırlar.

2. Bu seriyaya daxil olmayan, lakin Naram-Suenin müharibələrindən bəhs edən Qədim Babil dövrünə aid digər kompozisiya ilk dəfə Alfred Bosye tərəfindən tərcümə olunub.

3. Kompozisiyalardan biri "Naram-Suen əleyhinə böyük üsyan" adlanır; onun Akkad dilində 4, het dilində isə bir variantı məlumdur.

4. Başqa bir kompozisiya şərti olaraq "Qulaan və 17 hökmdar Naram-Suenə qarşı" adlanır.[25]

E.ə. III minillikdə baş verən hadisələrdən bəhs edən şumerdilli və akkaddilli ədəbi-mifoloji məzmunlu nümunələrə münasibət birmənalı deyil. Onların mötəbərliliyinə kölgə salan mühüm amil təsvir etdikləri vaxtdan xeyli sonra, ən əsası isə məktəblərin tədris prosesində əlavə oxu vəsaiti kimi istifadə məqsədilə yazılmaları ilə bağlıdır. Sonradan tərtib olunan kompozisiyalar təbliğata hesablanan ideoloji təsirlərə məruz qalırdı. Bu təsir Şumerdə qutilərin hakimiyyətinin süqutu ilə əlaqədar tərtib olunmuş "Utuheqalın əfsanəsi"ndə, Ur-Nammuya həsr olunmuş himndə və bu hökmdarın qutilər əleyhinə Suzda hərbi əməliyyatlarından bəhs

---

[25] Westenholz, J. The Legends of Kings of Akkad. / J. Westenholz. – Eisenbrauns: Winona Lake, – 1997, pp.8-10, 221-368, §§ 15-19, 20 A, 21, 21 B.

edən fraqmentdə[26] qabarıq nəzərə çarpır.

Qutilərin Cənubi Mesopotamiyaya yürüşləri və dağıdılan şəhərlərin vəziyyəti şumerdilli ədəbi nümunələrdə – ağılarda əks olunub.[27] Azsaylı mifoloji mətnlər qrupunda qutilərin Şumerdə ağalığının sonu ilə əlaqədar Babil münəccimlərinin tərtib etdikləri astroloji qeydlər xüsusi yer tutur; onların məlumatları Cənubi Mesopotamiyanın quti dövrü xronologiyasını dəqiqləşdirməyə imkan verir.[28]

Mixi yazılı ilk mənbələrin öyrənilməsində əsas ağırlıq şərqşünasların (əsasən samişünasların və iranşünasların) üzərinə düşmüşdür. İlkin mərhələdə (1870-1930-cu illər) onların səyi ilə Avropa muzeylərinin zəngin kolleksiyalarındakı gil kitabələrin kataloqlarının hazırlanmasına və nəşrinə diqqət yetirilirdi. Kitabələrdən edilən tərcümələr əsasında, paralel olaraq, F.Lenorman, F.Deliç, F.Hömmel, E.Meyer kimi tədqiqatçıların əsərləri vasitəsilə, ümumiləşdirilmiş şəkildə də olsa, Ön Asiyanın, eləcə də onun bir parçası olan Urmiya hövzəsinin yazılı tarixinin erkən mərhələləri, regionun tarixi coğrafiyası, sakinlərinin dilləri haqqında təsəvvür yaradılmışdı. 1930-cu illərdən başlayaraq

---

[26] Thureau-Dangin, F. La fin de la domination gutienne // Revue d’assyriologie et d’archéologie orientale, – Paris, – 1911, Tom IX, – pp. 111-120; Sauren, H. Die Feldzug Utuhengals von Uruk gegen Tirikan und das Siedlungsgebiet der Gutäer // Révue d’Assyriologie et d’Archéologie Orientale. – Paris, – 1967, Tom 61, – ss. 75-79; Frayne, D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol.2, Sargonic and Gutian Periods (2334-2113 BC). / D.R. Frayne. – Toronto, Buffalo, London, – 1993, pp.284-293, text E2.13.6; Афанасьева, В.К. От начала начал. Анталогия шумерской поэзии, – Санкт-Петербург: Петербургское востоковедение, – 1997, – с.171-203.

[27] Green M. W. Lamentation sur la Destruction d’Eridu // Journal of American Oriental Society. – Boston, – 1984, Vol. 104; Green, M.W. The Eridu Lament // Journal of Cuneiform Studies. – New Haven, – 1978, Vol. 30, – pp. 127-167; Green, M.W. The Uruk Lament // Journal of Near Eastern Studies. – Chicago, – 1984, Vol. 104, – pp. 253-279 və s.

[28] Weidner, E.F. Historisches Material in Babylonischen Omina-Literatur // Mitteilungen der Altorientalischen Gesellschaft. – Berlin, – 1929, Band IV, – ss. 226-240; Mirzəyev, M. Qədim Azərbaycan-Mesopotamia əlaqələrinə dair (Mesopotamiyada kuti hakimiyyətinin başlanğıcından III Ur sülaləsinin süqutuna qədər) // – Bakı: Tarix və onun problemləri, – 2003, 2, – s.5-13.

məxsusi olaraq Ön Asiyada məskunlaşan qeyri-sami mənşəli xalqların, xüsusilə də Zaqrosun ətəklərinə yayılmış etnik qrupların (elam, hurri, lullubi, quti, kaşşu) etnik kimliyinə həsr olunmuş ümumiləşdirilmiş tədqiqat işləri dərc olunurdu. 1950-ci illərədə bu xalqlarla bağlı artıq konkret mövzuların araşdırılmasına üstünlük verilirdi.[29]

Qərb alimlərinin əldə etdikləri nailiyyətlər 1950-ci illərdən etibarən sovet tarixçıləri G.Melikişvili, İ.M.Dyakonov və İ.H.Əliyevin elmi əsərləri vasitəsi ilə intensiv olaraq rusdilli oxuculara çatdırılırdı. Lakin bu əsərlərdə daha çox siyasi hadisələrin şərhinə, qədim adların zahiri əlamətlərinin sadalanmasına üstünlük verilir, onların morfoloji

[29] Speiser, E.A. Mesopotamian Origins. The Basic Population of the Near East. / E.A. Speiser – Philadelphia: University of Pennsylvania Press, – 1930. – 198 p.; Ungnad, A. Subartu. Beitrage zur Kulturgeschichte und Völkerkunde. / A. Ungnad. – Berlin, Leipzig: Walter de Gruyter und CO., – 1936. – 204 s.; Gelb, I.J. Hurrians and Subarians. / I.J. Gelb. – Chicago, Illinois: The University of Chicago Press, – 1944. – Pp. XV+128; Balkan, K. Kassitenstudien 1. Die Sprache der Kassiten. / K.Balkan. – New Haven: Connecticut, – 1954. – 238 s.; Hallo, W.W. Gutium // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. – Berlin, Leipzig, New York, –1971, Band III, – pp. 709-720.; Henning, W.B. The First Indo-Europeans in history // Society and History. Essays in Honour Karl August Wittfogel. – New York, – 1978. – pp. 215-230; Jaritz K. Die Kulturreste der Kassiten // Anthropos. – Fribourg, – 1960, Band. 55, fasc. 1-2, – ss. 17-84.; Jaritz, K. Die Kassitischen Sprachreste // Anthropos. – Fribourg, – 1957, Band 52, H. 5/6, – ss. 850-898. Klengel, H. Das Gebirgsvölk der Turukku in den Keilschrifttexten altbabylonischer Zeit // Klio. Beitrage zur Alten Geschichte, – Berlin, – 1962, Band 40, – ss. 5-22.; Klengel, H. Lullubum. Ein Beitrag zur Geschichte der altvörderasiatischen Gebirgsvölker // Mitteilungen des Instituts für Orientforschung. – Berlin, – 1966, № XI, – ss. 349-371; Ancilotti, A. La Lingua dei cassiti. / A.Ancilotti. – Milano: Unikopli, – 1981. – 146 p.; Balkan, K. Relations between the language of the Gutians and Turkish: Eski Önasiya’da Kut (ve ya Gut) halkının dili ile eski türkce arasındakı benzerlik // ERDEM. Cilt: 6/1, Ocak, – 1990, Sayı: 16. Ayrıbasım. – Ankara, – 1992. – inglish version, – pp. 65-125; turkish version 23 p.; Adalı, F.S. The Umman-Manda and its Significanse in the First Millennium B.C. / F.S. Adali – Sydney: University of Sydney, – 2009. – 302 p.; Ahmed, K.M. The Beginnings of ancient Kurdistan (c. 2500-1500 BC): a historical and cultural syntesis. / K.M. Ahmed. – Leiden: Leiden University, – 2012. – 562 p. və s.

təhlili və etimoloji yorumuna az diqqət yetirilirdi.[30] Bəzi problemlərin qoyuluşu və həlli istiqamətində araşdırmalar yalnız siyasi müstəqilliyimizin bərpası ərəfəsində və ya müstəqillik illərində mümkün olmuşdur. Məsələn, Azərbaycanın tarixi torpaqlarında mövcud olmuş ilk siyasi qurum olan Aratta şəhər-dövlətinin tarixi müstəqil mövzu kimi sovet tarixşünaslığında ilk dəfə Y.B.Yusifov tərəfindən tədqiqata cəlb olunmuşdur. O, Urmiya hövzəsinin qədim etnik tərkibinə də xüsusi məqalə həsr etmişdir. [31]

Kaşşuların hakimiyyəti dövründə (e.ə. XVI-XII əsrlər) Orta Babil şahlığının siyasi və sosial-iqtisadi tarixi mərhum tarixçimiz Mirheydər Mirzəyevin dissertasiya mövzusu olmuş və mövzunun tarixşünaslığı ətraflı nəzərdən keçirilmişdir. O, turukku və quti tayfalarının hərbi-siyasi tarixinə də məqalələr həsr etmişdir.[32]

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işində tədqiqatın obyekti kimi əsasən Urmiya hövzəsində Eneolit-Erkən Dəmir dövrlərinin arxeoloji abidələri, eləcə də hövzədə cərəyan edən hadisələrə dair mixi yazılı ilk mənbələr seçilmişdir. Tədqiqatın predmetini Urmiya hövzəsinin məskunlaşma tarixi, yerli tayfaların

---

[30] Меликишвили, Г.А. Наири-Урарту (Древневосточные материалы по истории народов Закавказья. I.) / Г.А. Меликишвили. – Тбилиси: Изд. АН. Грузинской ССР, – 1954, с.74-76, 88-104, 118-145; И.М.Дьяконов, История Мидии от древнейших времен до конца IV в. до н.э. / Дьяконов И.М. – Москва, Ленинград: Издательство Академии Наук СССР, – 1956, – с.98-142; Алиев, И. История Мидии. / И. Алиев. – Баку: Издательство АН Азерб. ССР, – 1960, – с.54-60, 63-69, 72-84.

[31] Yusifov, Y.B. Qədim Azərbaycan tarixinin tarixşünaslığı. I // Bakı: Tarix və onun problemləri, – 1996, №1, – s.236-245; Yusifov, Y.B. Qədim Azərbaycan tarixinin tarixşünaslığı. II // Bakı: Tarix və onun problemləri, – 1997, № 2, – s.118-131; Юсифов, Ю. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона) // Вестник древней истории – Москва, – 1987, № 1, – с.19-40.

[32] Mirzəyev, M. Babilistan kassilərin hakimiyyəti dövründə (e.ə. XVI-XII əsrlər). – Tarix elmləri namizədi alimlik elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Bakı, 1995. – 60 s.; Mirzəyev, M. Qədim Azərbaycan tayfalarının Aşşur hərbi ekspansiyasına qarşı mübarizəsi tarixindən..., – s.36-53; Mirzəyev, M. Azərbaycanın qədim tarixinin bəzi problemləri // Tarix və gerçəklik. Azərbaycan tarix qurumu, – Bakı: – 2007, № 1-2, – s.91-96.

etno-dil xüsusiyyətləri və yaratdığı siyasi qurumların fəaliyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzunun öyrənilməsində qarşıya qoyulan başlıca məqsəd Urmiya hövzəsində aparılan arxeoloji qazıntılardan əldə olunmuş maddi mədəniyyət nümunələrinin, mixi yazılı ilk mənbələrdə saxlanan məlumatların və müvafiq elmi ədəbiyyatın əsasında daş dövründən e.ə. II minilliyin sonuna qədər uzanan tarixi dövrlərdə biri digərini əvəzləyən mədəniyyətlərin, etnik və dövlətçilik tariximizin formalaşmasında rolu olan toplumların qarşılıqlı münasibətlərini, dil xüsusiyyətlərini öyrənməkdən ibarətdir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün yerinə yetirilməsi zəruri olan aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün yerinə yetirilməsi zəruri olan aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir.

–Paleolit-Erkən Dəmir dövrlərində Urmiya gölü hövzəsində həlledici tarixi hadisələri ümumi şəkildə nəzərdən keçirmək, sosial-iqtisadi inkişafın mərhələlərini müəyyənləşdirmək.

–Yeni oxunuş və düzəlişləri nəzərə almaqla yazılı ilk mənbələrin toplanması, təsnifatı və təhlili,

–Yazılı ilk mənbələr əsasında erkən tayfa birliklərinin formalaşmasını və süqutunu şərtləndirən tarixi prosesi izləmək,

–Qutilərin Cənubi Mesopotamiyada ağalığının xronoloji hüdudlarını dəqiqləşdirmək,

–Lullubilərin, qutilərin, turukkuların və digər etnik qrupların hərbi birləşmələrinin qonşu bölgələrə təsirinin dərəcəsini müəyyənləşdirmək, Azərbaycanın hərbi-siyasi və mədəni tarixində yerini aydınlaşdırmaq,

– Substrat toplumların dil materiallarının linqvistik təhlili əsasında söz və morfemlərin müəyyən olunması və onların Azərbaycan dilinin leksik fondunda saxlanan analoqları ilə müqayisəsi.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını yazılı ilk mənbələrin filoloji və müqayisəli təhlilindən doğan və hər cür ideoloji təsirlərdən uzaq elmi obyektivlik təşkil edir. Dissertasiya işinin yazılmasında materialların toplanması, öyrənilməsi və təhlili, ziddiyyətli məqamların göstərilməsi ilə ümumiləşdirilmənin aparılması və müəyyən nəticələrin əldə olunması əsas götürülmüşdür. Tədqiqatın

başlıcı mənbəyini mixi yazı sistemi ilə fərqli relikt dillərdə tərtib olunmuş gil kitabələrin spesifik məlumatları təşkil etdiyindən onlar xüsusi yanaşma metodu tələb edir və bu zaman bir neçə amilin nəzərə almasını vacib hesab edirik.

1.Tarixi və bədii-mifoloji mətnlər ideoloji-təbliğat xüsusiyyətli olduqlarından, onlarda, bəzən, hadisələr təhrif olunmuş formada verilirdi. Onların məlumatları reallığı şübhə doğurmayan daha mötəbər və hər cür ideoloji təsirlərdən uzaq olan sinxron mətnlərlə (hesabat-uçot sənədləri, ithaf xarakterli yazılar, "il adları", "məhəlli xronikalar" və s.) müqayisəli şəkildə təhlil olunmalıdır.

2. Azərbaycanın qədim etnik toplumları haqqında məlumat verən qonşu xalqlar e.ə. III əsrədək, əsasən, şumerlilərin yaratdığı mixi yazı sisteminin modifikasiya olunmuş variantlarından istifadə etmişlər. Mixi yazı işarələri polifonik xüsusiyyətə malik idilər, yəni fərqli hecaları və ideoqrafik mənaları ifadə edirdilər. Mirzələr yabançı yer və şəxs adlarının yazılışı zamanı  qraik ifadəsi mümkün olmayan fonemləri adekvat səslərlə əvəz edirdilər. Bu da adların oxunuşunda fərqli variantların yaranmasına səbəb olur, onların etimoloji izahını, genetik bağlarının müəyyənləşdirilməsini çətinləşdirir. Bu səbəbdən etimoloji təhlil apararkən, həsas material olduğundan, onomastik nümunələrə tənqidi yanaşılmalıdır. Mütəmadi miqrasiyalar səbəbindən toponimika dəyişə bilirdi. Şəxs adları da bölgənin hakim dilinin və ideologiyasının təsirinə məruz qaldığından heç də həmişə onun sahibinin etnik kimliyini təyin edəcək arqument sayıla bilməz.

3. Qədim yazılardan seçilmiş orijinal söz və ifadələrin linqvistik təhlili zamanı Aşşurşünaslıq elmdə (mixi yazıları öyrənən elm sahəsi) qəbul olunmuş şərti işarələrdən istifadə edilib.

4. E.ə. II minillikdə baş verən hadisələrin tarixlənməsi "Orta xronoloji sistemə" (və ya "Smit-Struve xronologiyası") müvafiq verilir. Əvvəlki minilliyin xronologiyası e.ə. 2086-cı ildə baş vermiş Ay tutulmasına əsasən aparılan hesablamalara əsaslanır (bax: irəli).

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– Urmiya hövzəsinin məskunlaşması Son Neolot-Erkən Eneolit dövründə Mərkəzi Zaqrosun maldar tayfalarının şimala miqrasiyası nəticəsində başlanır.

– E.ə. III minilliyin ikinci yarısından etibarən hövzədə etnik

toplumların yaratdığı birliklər regionda baş verən hərbi-siyasi proseslərə qoşulurlar.

– Hövzənin aborigen etnik qruplarına məxsus yer və şəxs adlarının etimoloji izahı onların qeyri-sami və qeyri-iranmənşəli olduqlarını, əsasən elamlılara və hurrilərə qohum dildə danışdıqlarını göstərir.

– Azərbaycan xalqının etnomədəni tarixinin təməlində duran lullubi, quti, turukku kimi etnoslar təkcə Urmiya hövzəsinə deyil, Şərqi Anadoluya, İraqın şimalına, İran yaylasının mərkəzi hissəsinə də yayılmışlar.

– II minilliyin ikinci yarısında hövzə irandilli tayfaların miqrasiyasına məruz qalsa da etnik mənzərədə ciddi dəyişiklik müşahidə olunmur. Yerli icmaların konsolidasiyasından yaranan kiçik siyasi qurumlar regionun güclü dövlətlərinə qarşı müqavimət göstərməkdə davam edirdilər.

– Urmiya hövzəsinin substrat toplumlarına aid onomastik və toponimik materialın təhlili nəticəsində onlarla söz və morfemlər müəyyən olunmuşdur; onlar indi də Azərbaycan dilində işlənməkdədir. Bu fakt qonşu xalqlarla çoxtərəfli əlaqələr nəticəsində an azı 100 sözün yüzilliklər boyu hövzə sakinlərinin dillərində işlənərək dövrümüzə qədər gəlib çatdığını göstərir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın mühüm elmi yenilikləri özündə aşağıdakıları ehtiva edir:

– Urmiya hövzəsində e.ə. V-II minilliklərdə baş verən etnik, siyasi sosial proseslər Azərbaycan və dünya tarix elmində ilk dəfədir ki, ayrıca dissertasiya mövzusu kimi kompleks şəkildə – arxeoloji və yazılı mənbələrin məlumatlarının elmi təhlili əsasında tədqiqat obyekti seçilib. Bölgənin ən qədim tayfaları haqqında indiyədək ayrı-ayrılıqda məqalələr yazılsa da, bu tayfaları birləşdirən və fərqləndirən cəhətlər barədə yalnız ümumiləşdirici əsərlərlə kifayətlənməli olurduq. Bu dissertasiyada fəsillər hər bir etnik qrup üzrə ayrı-ayrılıqda məlumat bazası şəklində tərtib olunub; nəticədə bu qrupların etnoqrafik xüsusiyyətləri, dillərinin səciyyəvi cəhətləri haqqında ümumi təsəvvür yaratmaq mümkün olub.

– Mövzunun tədqiqi prosesində ilk mənbələrin köhnə və yeni

oxunuşları müqayisəli şəkildə nəzərdən keçirilib. Elmi dövriyyəyə cəlb olunmuş mənbələrin əksəriyyəti MDB məkanının elmi mühitində ilk dəfə bu dissertasiyada səsləndirilib. Bəzi mətnlərin oxunuşu və interpretasiyası birbaşa avtoqrafik variantlardan olmaqla ilk dəfə müəllif tərəfindən həyata keçirilib.

–Dissertasiyada qutilərin Mesopotamiyanın cənubunda siyasi ağalığının xronoloji çərçivəsi tamamilə yeni sistem əsasında qurulmuşdur. Şumer-Babil ədəbi ənənəsinə görə Ay tutukması "uğursuz" təbii hadisə kimi sonuncu quti şahı Tirikanın hakimiyyətinin 40-cı gününə təsadüf etmişdir. Astronomlar riyazi hesablamalar apararaq bu hadisənin e.ə. 2109-cu ildə baş verdiyini söyləyirlər.[33] Lakin nəzərə almaq lazımdır ki, Ay tutulması ildə 2-3 dəfə baş verir və qısa vaxt ərzində müşahidəsi mümkün olan adi hadisə olduğundan onun insan yaddaşında qalma ehtimalı azdır. Bu elə qeyri-adi Ay tutulması olmalı idi ki, uzun müddət hafizələrdə yaşamış olsun. Yer planetinin fırlanma bucağına uyğun olaraq bu və ya digər regionlarda hər 152 ildən bir müşahidəsi mümkün olan və astronomların məcazi mənada "Super qanlı mavi Ay" adlandırdıqları kosmik hadisə baş verir. Bu zaman Ay maksimal dərəcədə Yerin orbitinə yaxınlaşdığından daha nəhəng və parlaq görünür və belə Ay tutulmasını təqribən 85 dəqiqə müşahidə etmə imkanı yaranır. Sonuncu dəfə belə bir hadisə 31 yanvar 2018-ci il tarixində baş verdiyindən və Ayın tam tutulmasını Mesopotamiya məkanında, eləcə də həmhüdud coğrafiyada, müşahidə etmək mümkün olduğundan hesab edirik ki, qutilərin Şumerdə siyası iflası e.ə. 2086-cı ildə baş vermişdir

– Tədqiqat zamanı hövzənin aborigen qruplarına (lullubilər, qutilər, turukkular) aid dil materialları (əsasən coğrafi və şəxs adları) toplanmışdır. Hövzənin yerli tayfalarının dillərindən mətnlər məlum olmasa da, onomastik materialın elementlərinin linqvistik təhlili bu etnik qruplar arasında etnogenetik bağlılığın olduğunu söyləməyə əsas verib.

– Elmi ədəbiyyatımıza və dərsliklərimizə düşməyən əhali

---

[33] Ungnad A. Subartu…, ss.76-79; История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I. Месопотамия. Москва: Наука, – 1983, – с.266.

qrupları (ukuman, kaşşu, mehri, muşk) haqqında məlumatlar təhlil olunur. Lakin onların hövzənin digər aparıcı etnosları ilə genetik qohumluğu məsələsi, hələ ki, açıq qalır.

– Tədqiqat zamanı hövzənin aborigen qruplarına (lullubilər, qutilər, turukkular) aid dil materialları (əsasən coğrafi və şəxs adları) toplanmış, dillərindəki bəzi sözlərin morfologiyasına aydınlıq gətirilmiş. Hövzənin yerli tayfalarının dillərindən mətnlər məlum olmasa da, onomastik materialın elementlərinin linqvistik təhlili bu etnik qruplar arasında etnogenetik bağlılığın olduğunu söyləməyə əsas verib.

– Urmiya hövzəsi tayfaları tərəfindən Qədim Şərq xalqlarının dillərindən mənimsənilən 100 sözün müasir Azərbaycan dilində hələ də işləndiyi müəyyən olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi və praktiki əhəmiyyəti bilavasitə yuxarıda göstərilən elmi yeniliklərlə bağlıdır. Dissertasiyanın nəticələrinin elmi əhəmiyyəti təkcə Azərbaycanın etnosiyasi tarixinin erkən mərhələsinə işıq salmaqla məhdudlaşmır. Bu nəticələr, eyni zamanda, Ön və Orta Asiyada Eneolit-Erkən Dəmir dövrlərində mövcud olmuş miqrasiya məsələlərinə, sosial-iqtisadi və etnomədəni əlaqələrə həsr olunan ümumiləşdirici əsərlərin və monoqrafiyaların yazılmasında istifadə oluna bilər. Bundan əlavə, müqayisəli dilçilik baxımından Ön Asiyanın relikt dilləri ilə maraqlananlar da bu nəticələrdən yararlana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi tamamlandıqdan sonra Azərbaycan MEA-nın Tarix, eləcə də Arxeologiya, Etnoqrafiya və Antropologiya institutlarının əməkdaşlarının birgə iştirakı ilə iki dəfə müzakirə olunmuşdur. Tədqiqat işinin məzmunu Azərbaycanda və xarici ölkələrdə nəşr olunan nüfuzlu jurnallarda, eləcə də beynəlxalq və Respublika səviyyəli elmi konfranslarda edilmiş məruzələrin materiallarında dərc edilmiş 30-dan artıq məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan MEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun "Qədim tarix" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi**

**həcmi.** Giriş, 8 fəsil, 23 yarimfəsil və nəticə daxil olmaqla (ədəbiyyat siyahısı. illüstrativ material və şərti işarələr istisna olmaqla) dissertasiyanın ümumi həcmi boşluqlarsız 442235 işarədən ibarətdir: o cümlədən: Giriş – 39636, I fəsil –36021, II fəsil – 26403, III fəsil – 51717, IV fəsil – 121847, V fəsil – 39349, VI fəsil – 37474, VII fəsil – 46239, VIII fəsil – 28144, Nəticə – 15405 işarə.

## II. Dissertasiyanın əsas məzmunu

Girişdə mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, dissertasiya işinin məqsəd və vəzifələri, tədqiqat obyekti, tədqiqat metodları, praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilmiş və onun strukturu verilmişdir.

**"Urmiya hövzəsi istehsal təsərrüfatının təşəkkülü dövründə"** adlanan I fəsil üç yarımbölmədən ibarətdir. *"Urmiya hövzəsinin təbii-coğrafi xüsusiyyətləri"* adlanan birinci yarımbölmədə hövzənin coğrafi mövqeyi, relyef xüsusiyyətləri, təbii şəraiti nəzərdən keçirilir.

"*Urmiya hövzəsinin məskunlaşması*" adlanan ikinci yarımbölmə ilk yaşayış məskənlərindən başlayaraq paralel mövcud olmuş, eləcə də biri-birini əvəz edən arxeoloji mədəniyyətlərin spesifik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunub. İbtidai insanların ilk yaşayış yerlərinə yaxınlıq Urmiya hövzəsi sakinlərinin bu geniş ərazidə baş verən inteqrasiya proseslərinə qoşulmasına müsbət təsir göstərmişdir. Hövzədə ilkin məskunlaşmanın maddi izləri Tamtama, Varjovi, Çaxmaqlı, Təpə-Colbar kimi üst paleolit dövrü abidələrində qeydə alınıb. E.ə. VI minilliyin başlanğıcında iqlimin isinməsi ilə əlaqədar Mərkəzi Zaqrosun dağətəyi yamaclarında yerləşən Gəncdərə, Təpə Asiab, Təpə Quran, Təpə Sarab, Təpə Siyahbid və Çoğa-mərən kimi neolit düşərgələrində həyatlarını mövsümi yaylaq təsərrüfatı ilə keçirən maldarlar yeni otlaqlar axtarışı ilə tədricən sığındıqları mağaraları və müvəqqəti yaşayış yerlərini tərk edərək Solduz-Uşnu vadisinə, yəni əkin üçün

daha yararlı olan münbit torpaqlara yayılmağa başlamışlar.[34]

Üçüncü yarımbölmə "*Eneolit və Tunc dövrlərinin sosial-iqtisadi mənzərəsi, kənar mədəniyyətlərlə əlaqələr*" adlanır. Eneolit (mis-daş) dövründə Dəvəgözdə (Xoy yaxınlığında), Hacı Firuztəpədə (Həsənlidən 1,5 km cənubda), Dəlmətəpədə (Həsənlidən 5 km cənub-qərbdə), Göytəpədə (Urmiya şəhəri yaxınlığında), Təbriz ətrafı məskənlərdə (Yanıqtəpə, Bəsməncan və Bostanabadda), Mərənd ətrafı yaşayış yerlərində (Kültəpə, Təzəkənd, Təpə Parpar və Livarda), Dinhətəpədə (Urmiya gölündən cənub-şərqdə) əhalinin davamlı oturaq həyata keçərək əkinci-maldar təsərrüfatlarını yaratmışlar.[35] "Segirdan" adlanan yerdə (Dinhətəpə yaxınlığında) Şərqi Anadolu (Arslantəpənin VII, VIA təbəqələri) və Qafqaz (Maykop, Leçinkay) üçün səciyyəvi olan

---

[34] Singer R., Wymer J. A Hand-Ax from Nortwest Iran: The Cuestion of Human Mowement between Africa and Asia in the Lower Paleolithic Periods / Views of the Past. – The Hague, – 1978, – pp.13-27; Henrickson, E.F. An updated chronology of the Early and Middle Chalcolitic of the Central Zagros Highlands, Western Iran // Iran, – London – Vol. XXIII, 1985, pp. 63-108; Talai, H. Pottery Evidence from Ahrendjan Tepe. A Neolithic Site in the Salmas Plain (Azerbaidjan, Iran) // Archaologische Mitteilungen aus İran. Neue Folge. – Berlin. – 1983, Band 16, – s.7-17; Ajorloo, B. The Neolitization process in Azerbaijan: An introduction to review / Procedings of the 5th İnternational Congress on the Archaeology of the Ancient Near East (3-8 april 2006). Madrid, 2008, pp. 107-125; Abedi, A. İranian Azerbaijan Pathway from the Zagrosto the Caucasus? Anatolia and Northern Mesopotamia: Dava Göz, A New Neolithic Site in NW Iran // Mediterranean Archaeology and Archaeometry, – Vol. 17, №1, – s.69-87.

[35] Dyson, R.H. Early Cultures of Solduz…, pp. 2956, 2967, figs.1025, 1026; Hamlin, C. Dalma Tepe // Iran: London, 1975, Vol. XIII, – s.111-128; Burney, G.A. The Excavations at Yanik Tepe, Azerbaidjan, 1962. Third Preliminary Report // – London – Iraq, – 1964, Vol. 26, – pp.54-62; Binandeh A., Kosyan A. The Southern Urmia Basin During the Chalcolithic Period / Symposium on East Anatolia-South Caucasus Cultures. Proceedings 1. Cambridge: Scholars Publications, – 2015, – pp.42-46; Henrickson E.F. An updated chronology of the Early and Middle Chalcolitic of the Central Zagros Highlands, Western Iran // Iran: London, 1985, Vol. XXIII, – pp.73, 79, 104; Grawford R.H. Geoy Tepe 1903: Material in the Collection of the Fitzwilliam Museum, Cambridge // Iranica Antiqua: Paris, – 1975, Vol. XI, – pp. 1-28; Талаи Х. Археология и искусство Ирана в I тыс. до н.э./ Х, Талаи, – Москва: Вече, – 2011, – с.10-14.

erkən kurqan mədəniyyəti aşkara çıxarılmışdır.[36] Maddi mədəniyyət nümunələri Eneolit dövrünün sonlarında hövzədə məskunlaşan əhalinin bir qisminin hələ də oturaq, digər hissəsinin köçəri və yarımköçəri həyat şəraətində yaşadığını göstərir.

E.ə. III minilliyin başlanğıcında Şərqi Anadoluda və Naxçıvan bölgəsində məskunlaşmış əhalinin müəyyən qisminin, başqa sözlə, Kür-Araz mədəniyyətinin (Qərb elmi ədəbiyyatında "Transcaucasian" və ya "Karas" kimi adlarla tanınır) daşıyıcılarının Urmiya gölünün qərb və şərq sahilləri boyunca yerləşən məskənlərə (Göytəpə, Yanıqtəpə, Təzəkənd, Həftəvantəpə və s.) yayılması ilə hövzənin ictimai həyatında və etnik tarixində yeni mərhələ açılır. Məhz bu dövrdə hövzənin mühüm strateji əhəmiyyətli yaşayış yerləri möhkəmləndirilmiş ilkin şəhər mərkəzlərinə çevrilir. Göytəpədə və Yanıqtəpədə aşkara çıxarılmış yonulmamış kobud daşlardan və çiy kərpicdən hörülən istehkam divarlarının qalıqları, yanğın əlamətləri, tapılmış sapand daşları hərbi əməliyyatların tədricən intensiv hal aldığından xəbər verir.[37]

**"Aratta şəhər-dövləti. Şumerlə iqtisadi və mədəni əlaqələr"** adlanan II fəsil iki yarımbölmədən ibarətdir.

"*Arattanın lokalizə problemləri*" adlanan birinci yarımbölmə Arattanın lokalizasiyasının dəqiqləşdirilməsinə həsr olunub. Azərbaycanın tarixi cənub torpaqlarının vahid siyasi qurumun tərkibinə qatılması e.ə. III minilliyin başlanğıcında şumerlilərin Mərkəzi Asiyadan Mesopotamiyaya uzanan mühüm karvan yolunun üstündə saldıqları Aratta şəhər-dövləti ilə bağlı olmuşdur. Vaxtı ilə mərhum tarixçimiz Y.B.Yusifov Aratta şəhər-dövlətinin tranzit

[36] Трифонов, В.А. Курганы Майкопского типа в северо-западном Иране / Судьба ученого. К 100-летию со дня рождения Бориса Александровича Латынина. Государственный Эрмитаж. / – Санкт-Петербург, – 2000, – с. 244-262.

[37] Edwards, M.R. The Pottery of Haftavan VIB (Urmia ware) // – London, – Iran,– 1981, Vol. XIX, – pp. 101-102; Omrani, B. Early Bronze Age, New Migrants and the Beginnings of Township in Azerbaijan, NW Iran / B. Omrani, K. Shaidi, H. Abedi. /– Leiden, – Iranica Antiqua. –2012, Vol. 47, – pp. 1-27; Maziar S. Settlement dinamics of the Kuro-Araxes culture: An Overview of the Late Chalkolitic and Early Bronze Age in the Khoda Afarin Plain, North-Western Iran // Paléorient: Paris, 2015, 41, – pp.25-36.

əhəmiyyətli karvan yolu üzərində yerləşən mərkəzləşdirilmiş boşaltma məntəqəsi olduğunu qeyd etmişdir. O, digər tədqiqatçılardan fərqli olaraq, dünya tarixşünaslığında ilk dəfə olaraq, onu Azərbaycanın tarixi torpaqlarının cənub hüdudları yaxınlığında, Sənəndəclə Zəncan arasında yerləşdiyini sübut etməyə təşəbbüs göstərmişdir. Belə lokalizasiyanı əsaslandıran başlıca arqument Mannanın ərazisində "Arattanın çayı" adlanan hidronimin olmasıdır. Diyala, ya da Kiçik Zab çaylarına şimaldan axan qollardan biri ilə eyniləşdirilən bu çay Mannanın Sumbu və Surikaş vilayətlərinin ərazisindən axırdı. Bundan əlavə, II Sarqonun kitabələrində Aşşur dövlətinə xərac ödəyən Mada (=Midiya) şəhər başçıları sırasında Aratpatti şəhərinin hakimi xatırlanır.[38] Toponimdəki -pat komponenti Akkad dilində "sərhəd" kimi mənalandırılır.

Arattanın lokalizasiyası ilə bağlı digər əhəmiyyətli arqument Urartu şahı I Arqiştinin salnaməsində Mannada yerləşən Alateye adlı dağın xatırlanmasıdır. Bu dağ Mannanın cənub-şərqində – Uqişti vilayətinin (=Aşşur mətnlərində Uişdiş; Marağa yaxınlığında) və Bustu (=Aşşur mətnlərində Buştu, Bustus) ölkəsinin qonşuluğunda yerləşirdi.[39] Sadalanan faktlar onu göstərir ki, Aratta şəhəri sonralar əvvəlki əhəmiyyətini itirsə də e.ə. VIII əsrin sonlarında yaşayış məntəqəsi kimi mövcudluğunu davam etdirirdi.

Aratta Urukun piktoqrafik sənədlərinin birində xırda buynuzlu heyvanların uçotu ilə əlaqədar olaraq qeydə alınmışdır və bu fakt Arattanın mifik ölkə olmadığını sübut edir.[40] Şumer dastanlarının məlumatlarına əsasən Uruk şəhərindən (indiki İraqda Varka) Arattaya gedən yollardan birinin indiki Süleymaniyyə şəhəri yaxınlığından keçərək Urmiya gölü hövzəsindəki ərazilərə istiqamətləndiyi müəyyənləşdirilmişdir. "Luqalbanda və Hurrum

---

[38] Дьяконов И. М. Ассиро-вавилонские источники по истории Урарту…, № 49; Дьяконов И.М. История Мидии…, с.214, 221.

[39] Меликишвили, Г.А. Урартские клинообразные надписи. / Г.А. Меликишвили. – Москва: Издательство АН СССР, – 1960, – № 127.

[40] Green, M.W. Animal Husbandry at Uruk in the Archaik Period / – Chicago, – Journal of Near Eastern Studies, – 1980, Vol. 39, № 1, – pp. 17-18, 27, text № 21.

dağı" dastanının 48-49-cu sətirlərində deyilənlərdən məlum olur ki, Arattanı istila etmək üçün Uruk şəhərində səfərbərlik elan olunur. Hərbi yürüşün davamı eposda belə təsvir olunur: "6-cı gün çayı keçdilər, 7-ci gün dağları aşdılar".[41] Şübhə yoxdur ki, burada Dəclənin qolu Kiçik (və ya Aşağı) Zab çayı nəzərdə tutulub; onu keçdikdən sonra ordu Zabua ölkəsinin Hurrum dağlarına (İraqın İranla sərhəddi yaxınlığındakı Hurin (və ya Horen) adlı dağlıq bölgə) çatmışdır.[42] Şumerdən Arattaya aparan digər yol da bura yönəlirdi, lakin Elam dövlətinin qərb torpaqlarından (indiki Xuzistan) keçirdi.[43]

Fəslin ikinci yarımbölməsi "*Aratta cəmiyyətinin sosial-iqtisadi həyatı*" adlanır. Şumer dastanlarında bədii boyalarla və bir qədər də mifoloji səpgidə e.ə. XXVIII yüzilliyin sonunda Arattanın sosial quruluşundan, Şumer şəhəri Urukla siyasi-iqtisadi münasibətlərindən xəbər verilir. Aratta ölkəsi baş kahin tərəfindən idarə olunurdu. Lakin o məhdud səlahiyyətlərə malik idi və təkbaşına qərarlar qəbul edə bilməzdi; mühüm qərarlar ali qanunverici orqanda – ağsaqqallar məclisində müzakirə edilərək qəbul olunurdu. Urukda və Arattada şumermənşəli adlardan, eyni yazı sistemindən istifadə edilməsi və eyni tanrılara (İnanna, Dumuzi, Lama) sitayiş olunması hər iki şəhər-dövlətin siyasi elitasının eyni etno-mədəni köklərə bağlılığından xəbər verir. Arattanın iqtisadiyyatının əsasını qiymətli metalların, mineralların və tikinti materiallarının (əsasən, qaya daşının) hasilatı və emalı, eləcə də bu sərvətin nəqli təşkil edirdi. Uruk şəhərinin hökmdarı Enmerkar bu sərvətlə məbədlər inşa etmək istəyirdi. Bu məbədləri tikən, onları qiymətli daşlarla bəzəyən sənətkarlar da Arattadan dəvət olunurdu. Arattadan alınan sərvətin əvəzi taxılla ödənilirdi.

---

41 Vansthiphout, H.L. Epics of Sumerian Kings..., p.63, 138-139; Афанасьева, В.К. От начала начал. Анталогия шумерской поэзии, / В.К. Афанасьева, – Санкт-Петербург: Петербургское востоковедение, – 1997, – с.182.

42 Vansthiphout, H.L. Epics of Sumerian Kings..., – p.110; Афанасьева, В.К. От начала начал…, – с.185-187.

43 Канева, И.Т. Шумерский героический эпос. Транскрипции, перевод, комментарии и выводные статьи. Энмеркар и верховный жрец Аратты // Вестник древней истории. – Москва, – 1964, № 4, – с., с.194, 209.

Diplomatik münasibətlər fayda vermədikdə Enmerkar Arattanı müharibə ilə hədələmiş, hətta ordusu ilə şəhəri bir müddət mühasirədə saxlamışdır.

Aratta hökmdarının elçisi əslən Hamazi şəhərində idi, vətəni dağıldıqdan sonra o Arattaya köçməli olmuşdur. Onun diplomatik missiyası uğursuzluqla nəticələnmişdir.[44] Bu məlumat Arattanın Hamaziyə coğrafi yaxınlığına və hər iki şəhərin əhalisinin eyni (və ya oxşar) dildə danışdığına işarə edir. Haqqında tarixi mətnlərdə e.ə. II minilliyin ortalarınadək xeyli məlumat qalsa da Hamazi şəhərinin harada yerləşdiyi bilinmir; onu Kərküklə Həmədan arasında, Zəncan yaxınlığında, Urmiya hövzəsində lokalizə etmək təklif olunmuşdur.[45] Hamazi şəhərinin "Hataniş" adlı hökmdarı Mesopotamiyanın cənub şəhərlərini bir müddət (e.ə. XXIV əsrdə) siyasi təsir dairəsində saxlamışdır. Həmin vaxtlar Hamazi Ebla şəhər-dövlətinin (indiki Suriyada Təll-Mərdih) ticari tərəfdaşı idi.

Arattanın müstəqil siyasi qurum kimi tənəzzülünün səbəblərindən biri "Kür-Araz" mədəniyyətinin daşıyıcılarının İran yaylasına yayılması ilə bağlı olmuşdur. Bu mədəniyyətin daşıyıcılarının Anadolunun şərqindən və Naxçıvan bölgəsindən başlanmış birinci miqrasiyası Urmiya hövzəsindən keçməklə e.ə. 2800-cü ildə Luristana yetişmiş və oradakı mədəniyyətlərin varlığına son qoymuşdur. Onların gəlişinə qədər İran yaylasının şimal-qərbində yerləşən Qodintəpə, Təpə-Sialk, Təpə-Özbəki, Təpə-Sofalin kimi qədim məskənlərin sakinləri Şumerin və Elamın qabaqçıl mərkəzləri ilə qarşılıqlı mal və məhsulların mübadiləsində olmuşlar; bunu tapılan 80-ə yaxın piktoqrafik yazılı hesabat sənədləri təsdiq edir.[46]

---

[44] Vansthiphout, H.L. Epics of Sumerian Kings..., p.110; Афанасьева, В.К. От начала начал…, – с.185-187.

[45] Jacobsen, T. The Sumerian King List…, p.98, not.166; Афанасьева В.К. От начала начал..., с.481; Kozad, A.M. The Beginnings of ancient Kurdistan..., – p.63, not.82.

[46] Gopnik, H., Rothman, M. S. On the high road. The History of Godin Tepe, Iran. / H. Gopnik, M.S. Rothman. – Ontario: Royal Ontario Museum Press, – 2011, – pp.116-145; Weis H., Young C. T. The Merchants of Susa: Plateau-Lowland Relations in the Late Fourt Millennium BC // Iran, Vol. XIII, 1975, pp. 1-18; Glassner J.-J. Les Tablettes dites "urukéennes" de Sialk $IV_1$ //

Dissertasiyanın **“Manda ordusu” və lullubi tayfaları”** adlanan III fəsli dörd yarımbölmədən ibarətdir və hövzənin adı elmə məlum olan ən qədim etnik toplumlarına həsr olunub.

Fəslin “*Manda toplumu – Kür-Araz mədəniyyətinin daşıyıcıları*” adlanan birinci yarımbölməsi Arattanın siyasi süqutuna səbəb olan toplum haqqında məlumatların təhlilini ehtiva edir. Bu toplum e.ə. 2000-570-ci illər ərzində tərtib olunmuş 51 mətndə xatırlanır. “Umman manda ordusu” (Akkad dilinmdən tərcümədə: “Kimliyi bilinməyən ordu”) adı ilə tanınan bu toplumun dilindən yazılı nümunə qalmamışdır. Şumer ədəbi ənənəsinin məlumatına görə bu toplum ilk dəfə Enmerkarın zamanında (e.ə. XXVIII əsr) Anadolunun mərkəzi və şərq hissələrində görünmüşdür. “Kuta şəhərinin hökmdarı” eposunda bu toplumun hücumuna məruz qalan Naram-Suen vaxtı ilə Enmerkarın onlarla hərb meydanında qarşılaşmaqdan çəkindiyindən və onlara qarşı necə hərəkət etməli olduğuna dair məsləhət qoyub getmədiyindən giley səslənir.

E.ə. XXIII əsrin sonunda, növbəti miqrasiya mərhələsində, “umman manda” toplumu böyük hərbi qüvvə ilə Subartu, Qutium və Lullubum ölkələrini işğal etmiş, Akkad dövləti üçün təhlükə yaratmışlar. “Kuta şəhərinin hökmdarı” eposunda bu toplumun timsalında Yuxarı Mesopotamiyaya tamamilə yeni fiziki tipin gəldiyi özünəməxsus metafora ilə – “yarasa bədənli, qarğa sifətli, meymun düşüncəli, sərgərdanların törəmələri olan döyüşçülər” ifadəsilə təsvir edilib. Bu orduya “Anubanini” adlı lider başçılıq edirdi.[47] Eposa tarixi mənbə kimi müraciət etmiş tədqiqatcılar onu Sarıpuldakı qayada kitabəsini həkk etdirən Lullubi ölkəsinin çarı Anubanini ilə eyniləşdirmişlər. Anubanini özünü Qutiumun hökmdarı elan etmiş, qısa müddətdən sonra Lullubum taxtını da ələ keçirmişdi. Onun qurduğu siyasi qurum “Yuxarı dənizdən Aşağı dənizədək” (Urmiya və Zəribor gölləri arasındakı ərazilər)

---

Neuvelle Assyriologique Brèves et Utilitaires, № 4, 1998, pp. 102-104; Dahl J. L., Hessari M., Yousefi R. The Proto Elamite Tablets from Tepe Sofalin // Iranian Journal of Archaeological Studies, Vol. 2/1, 2013, pp. 57-73.

[47] Westenholz J. The Legends of Kings of Akkad…, pp. 264, 308-309; Adalı F.S. The Umman-Manda…, pp.248, 252.

uzanırdı.[48]

Naram-Suenə qarşı yaradılmış hərbi blokların birinə Aratta hökmdarı da qatılmışdır. Bu bloka qarşı aparılan hərbi kampaniya zamanı Arattanın qonşuluğundakı Hamazi Naram-Suenin ordusu tərəfindən dağıdılmış,[49] e.ə. XXI əsrdə lullubilərin torpaqları ilə birlikdə III Ur-Şumer dövlətinin canişinlərinin idarəçiliyinə keçmişdir.

"Umman nanda" toplumunun etnik mənşəyi mübahisə predmeti olaraq qalır. Onlara məxsus spesifik şəxs adları (Anubanini, onun zövcəsi Melili, oğulları Medudu, Tartadada, Baldahdah) son hecanın təkrarı ilə diqqət çəkir. Bu tip adlar Dəclənin qolu Diyala çayı hövzəsi üçün xarakterik olduğundan onların daşıyıcılarının dilini şərti olaraq "Protodəclə dili" adlandırırlar. Mesopotamiyada şəhər başçılarının (Kişdə Kubaba və Maqalqal, Kimaşda Hunnini, Aşşurda Azuzu və İtiti, Bandamanda Duhsusu, Urda Elili və digərləri) mənası bəlli olmayan adlari yeni miqrantların Erkən sülalələr mərhələsində siyasi fəallığının artdığını əks etdirir. Cənubi Mesopotamiya sakinləri ilə assimilyasiya nəticəsində onların bəzi tanrıları (Zababa, Bunene, İqiqi, İnana, Aruru və s.) şumerlilərin panteonuna keçmişdir.[50]

E.ə. II minilliyin ortalarında "umman manda" termini, əsasən, Het və Mitanni dövlətlərində yaşayan etnik qrupa şamil olunurdu. O dövrün mətnlərində atçılıq idman növü ilə bağlı olaraq qeydə alınmış hind-ari mənşəli terminləri və teonimləri (İndra, Varuna, Nasatya) bu tayfa ilə əlaqələndirirlər. Onlara məxsus Barattarna, Zalutiş, Arahab, İştaa, İşuhunu, Kananaya, Şiummi kimi şəxs adları məlum relikt dillərdən etimologiya olunmasa da, tədqiqatçıların bir qismi onları hind-avropalılara, digər qismi isə hurri qruplarına aid

48 Frayne, D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol. 4. Old Babylonian Period (2003-1595 BC). / D.R.Frayne, – Toronto, Buffalo, London, – 1990, – s.704-706.

49 Westenholz, J. The Legends of Kings of Akkad…, p.249-250; Legrain, L. Historical Fragments / L.Legrain, – Philadelphia: University of Pennsylvania, – 1922, – p.77, №43.

50 Westenholz J. The Legends of Kings of Akkad…, 1997, p.311; Əlimirzəyev, A. Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV-III minilliklər). / A.Əlimirzəyev, – Bakı: Şərq-Qərb, – 2011, – s. 29-30.

edirlər.[51]

Fəslin ikinci yarımbölməsi "*Lullubi tayfalarının yayıldığı areal*" adlanır. Lullubilər indiki Süleymaniyyə ilə Urmiya və Zəribor gölləri arasındakı ərazilərdə məskunlaşmışlar. Şumer dastanlarının birində Enmerkarın böyük ordu ilə "Lullubi ölkəsinin dağlarından" keçməklə Arattaya yürüşü təsvir olunmuşdur.[52] Deməli, lullubilər Kür-Araz mədəniyyəti daşıyıcılarının ("umman manda" toplumu) miqrasiyasına qədər Urmiya gölü hövzəsində yaşayırdılar. Şumer-Akkad və Aşşur mətnlərində bu etnos "lulu", "lullu", "lullubi", "lullumi", məskunlaşdıqları ərazilər isə "Zabua", "Zamua" kimi adlarla qeyd olunmuşdur. Onlar "nullu", "lulahhu" kimi adlarla hurrilərə və hetlərə də məlum idilər.[53]

"*Lullubilərin siyasi tarixi*" adlanan üçüncü yarımbölmədə Urmiya hövzəsinin ən qədim etnik qrupunun qonşuları ilə münasibətlərinin tədqiqinə həsr olunub. Lullubilərin ölkəsi tarixi mətnlərdə ilk dəfə Abu-Salabihdən (qədim Şumer şəhəri Keş) tapılan və e.ə. XXVI əsrə aid edilən coğrafi adlar siyahısında əks olunub. Lullubi mənşəli muzdlu işçilər Cənubi Mesopotamiya şəhərlərinin (Şuruppak, Laqaş, Ur) və Ebla şəhər-dövlətinin e.ə. XXV əsrə aid təsərrüfat sənədlərində xatırlanırlar; bir hesabatda hətta "lulubi çarı" ifadəsi qeydə alınıb.[54]

---

[51] Adalı, F.S. The Umman-Manda and its Significanse in the First Millennium B.C…, – pp.20-30, 231; Гамкрелидзе, Т. Передвижение согласных в хеттском (неситском) языке. / Переднеазиатский сборник. Том I. Вопросы хеттологии и хурритологии, – Москва: – 1961, – с.277; Гиоргадзе, Г.Г. К вопросу о локализации и языковой структуре каскских этнических и географических названий / Переднеазиатский сборник. Том I. Вопросы хеттологии и хурритологии, – Москва: – 1961, – с.337; Hennerbichler F. The Origins of Kurds // Advances of Anthropology, – 2012, Vol. 2, № 2, – pp. 64-79.

[52] Vanstipout H. Epics of Sumerian Kings.The Matter of Aratta…, p.138-139.

[53] Меликишвили Г.А. Наири-Урарту..., с.132-133; Laroche E. Glossaire de la Langue Hourrite. / E.Laroche, – Paris : Editions Klincksieck, – 1980, – p.160.

[54] Burrows, E. Ur Excavations Texts. Vol. II. Archaic Texts. / E.Burrows, – Oxford: Printed by order of the Trustees of the two museum, – 1935, – texts №№ 17, 62, 70, 74, 112, 114, 163, 171, 181, 212, 226, 231, 257, 338, 350, 352, 371; Zadok R. Elamites and other peoples from İran and the Persian Gulf Region in Early Mesopotamian Sources // Iran: london, – 1994, Vol. 32, – pp.48-49; Astour M.C.

E.ə. III minilliyin ikinci yarısında, Akkad dövlətinə müqavimət məqsədilə lullubilərin ölkəsində iki siyasi qurum yaradılır: Lullubum və Simurru. Lullubum çarlığı indiki Süleymaniyyə ilə Urmiya və Zəribor (Luristanda) gölləri arasındakı ərazini əhatə edirdi. Naram-Suenin zamanında “umman manda” lideri Anubanini Lullubumu işğal edərək Akkad şahlığına qarşı hərbi koalisiya qurmuşdur; koalisiyaya Zaqrosda məskunlaşan yerli tayfalar da daxil olmuşlar. Dərbəndi-Gour aşırımında (Süleymaniyyə-Rubat yolu üstündə) baş verən döyüşdə koalisiya qüvvələrinin məğlubiyyətindən sonra Lullubumda Sidur və Satuni, Simurruda Baba adlı icma başçıları yeni hərbi birlik yaradırlar. Naram-Suenə qarşı növbəti koalisiya 17 siyasi qurumu birləşdirmişdi və orada Paşahnadqalni adlı liderin başçılığı ilə lullubilər də təmsil olunurdular.[55]

Lullubilərin qutilər və subarlarla hərbi-siyasi ittifaqı Akkad dövlətinin süqutu və Şumer şəhər-dövlətlərinin işğalı ilə nəticələnmişdi. E.ə. XXII əsrin ortalarında bu ittifaqın daxilində parçalanma baş vermiş və lullubilər Simurrunun hökmdarı İnima-Nişbanın rəhbərliyi ilə qutilərin lideri Enridavazira qarşı üsyan qaldırmışlar.[56]

III Ur-Şumer dövlətinin hökmdarı Şulqi Lullubum və Simurruya 9 dəfə hərbi yürüş etməklə bölgəni nəzarətdə saxlamağa müvəffəq olmuşdu; təsərrüfat sənədlərinin müəyyən qismi bu qələbənin şərəfinə tarixlənib.[57] Şu-Suenin zamanında lullubilərin torpaqlarının bir qismi şumerli canişinlər tərəfindən idarə olunurdu,

---

A Reconstruction of the History of Ebla (Part 2) / Eblaitica: Essays on the Ebla archives and Eblaite Language. Vol.4, / Edited by C.H.Gordon, G.A.Rendsburg. – Eisenbrauns, Indiana, – 2002, – p.104, not.279.

[55] Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften..., ss.90-92; Wetenholz, J. The Legends of Kings of Akkad…, – p. 249; Əlimirzəyev, A. Anubanini…, – s. 99-100.

[56] Frayne D. R. The Royal Inscriptions of Mesopotamia. Ea rly Periods. Vol. 2. Sargonic and Gutian Periods (2334-2113 BC). / D.R. Frayne, – University of Toronto Press, – 1993, – pp.221-228.

[57] Keiser C.E. Selected temple Documents of the Ur Dynasty / Yale Oriental Series. Babylonian Texts. Vol. IV, – New Haven, – 1919, – №№ 66, 250, 278, 295 və s.

digər hissəsi elamlıların yaratdığı Simaşki konfederasiyasının tərkibinə qatılmışdır.[58] O dövrə aid şumerdilli təsərrüfat sənədlərində III Ur-Şumer dövlətinin təsərrüfatlarında çalışan lullubilər haqqında məlumatlar üstünlük təşkil edir; onların əməyi gündəlik ərzaq məhsulları və təlabat malları ilə ödənirdi.[59]

Lullubilərin yaratdığı digər siyasi qurumun – Simurrunun adı Kerha çayının mənbəyindəki geniş düzənliyin müasir adında – "Seymərrə" (və ya "Seynmərre") formasında qalmışdir. Akkad hökmdarları I Sarqon, Naram-Suen Simurruda uğurlu hərbi əməliyyatlar aparmışlar. III Ur-Şumer dövlətinin süqutundan sonra Simurruda yeni sülalənin hakimiyyəti bərqərar olur. Onların ən qüdrətlisi İddin-Suen Simaşki, Kakmium, eləcə də Şikşambum, Utum kimi turukku icmalarını məğlub etmişdir. Onun mətni və barelyefi Anubanininin kitabəsi olan Miankal qayasına həkk edilib. İddin-Suen oğlu Zabazuna turukkuların yaşadığı Kulunnum vilayətində (Raniyə ovalığında) baş verən üsyanı yatırması şərəfinə kitabə yazdırmışdır.[60]

Uşnu-Solduz və Raniyə ovalıqları e.ə. XIX-XVIII əsrlərin qovşağınada müxtəlif etnik qrupların, xüsusən də qutilərlə turukkuların maraqlarının toqquşduğu bölgəyə çevrilir. Turukkular hərbi dəstələrinə muzdlu lullubi döyüşçülərini cəlb edir, xidmətləri qızıl və gümüşlə ödənilirdi. O vaxtlar lullubilərin ölkəsi bir neçə hömkdarla idarə olunurdu.[61] Qeyri-sami mənşəli şəxs adlarına

---

[58] Potts D.T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. – Cambridge Cambridge University Press, – 1999, – p. 136.

[59] Hilgert, M. Drehem Administrative Documents from the reign of Amar-Suena / Cuneiform Texts from the Ur III Period in the Oriental Institute. Vol. 2. / M. Hilgert, –Chicago, Illinois: Chicago University Press, – 2003, – №№ 200, 540; Sigrist, R. M. Neo-Sumerian Tablets from the Royal Ontario Museum. Vol.1, / R.M. Sigrist, – Bethesda, – 1995, – № 132; Lafont B., Yıldız F. İstanbul Arkeoloji müzeleri'ndeki Tello tabletleri. "III Ur devrine aid". / B.Lafont, F.Yıldız, – İstanbul, – 1989, – №№ 728, 740, 801, 828, 878, 904; Cuneiform Texts from Cappadocian Tablets in the British Museum. Part I, – London, – 1921, – №№ 113446, 113624.

[60] Ahmed, Kozad. The Beginnings of ancient Kurdistan…, pp.255-258, 272, 287, 308-310.

[61] Eidem, J., Lossoe, J. The Shemshara Archives 1…, № № 63, 69; Eidem J. The Shemshāra Archives. 2…, №№ 5, 11, 116, 128. 133, 134. 145, 146.

(Adasi, Libaiu, Buzaiu, Lullaiu) istinadən hesab edirlər ki, az vaxtdan sonra lullubi qruplarından biri əlverişli strateji mövqeyə malik olan Aşşur şəhərinə nəzarəti ələ keçirmişlər.[62] Lullubilər Nuzi şəhərinin (Kərkükün yaxınlığında) hurri sakinlərindən mübadilə yolu ilə mis, qurğuşun, gümüş alırdılar.[63]

Hurrilərin Nuzi şəhərində (indiki Kərkük yaxınlığında) lullubi mənşəli qadınlar yüksək dəyərləndirilirdi. Bu şəhərin sakinləri övladları olmadıqda lullubi mənşəli qul qadınla evlənə bilərdilər və bu nikahdan doğulmuş uşaqlar şəhərin digər vətəndaşları ilə eyni hüquqa malik idilər. Bəzi hallarda lullubilər qarət məqsədi ilə hurri məskənlərinə hücumlar edir, dinc əhalini girov götürürdülər.[64] E.ə. II minilliyin ortalarında lullubi qrupları Elamda, Suriyada, Fələstində, Anadolunun şərqində, hətta Misirdəd də qeydə alınıblar.[65] E.ə. II minilliyin ikinci yarısında luillubilər qutilər, kaşşular, subarlar və ukumanilərlə birgə Aşşur işğalına qarşı uğursuz koalisiyalarda birləşmişlər.

Fəslin dördüncü yarımbölməsi "*Lullubilərin etnik xüsusiyyətləri*" adlanır. İlk dəfə G.Hüzing e.ə. III-II minilliklərdə İran yaylasında məskunlaşan etnosların tədqiqinə kompleks şəkildə yanaşmaya üstünlük verərək onları vahid dil ailəsində birləşdirmək təklifi ilə çıxış etmişdir. Bu ideya müəyyən fərqlərlə E.Şpayzer, E.Herzfeld, C.Kameron, A.Unqnad, İ.Gelb və digər görkəmli alimlər tərəfindən dəstəklənirdi. Bu dil qrupunu şərti olaraq "Zaqro-Elam", "Kaspi-Elam" və ya "Kaspi" adlandırır və buraya daxil olan dillərin Subartu ölkəsinin hurrilərəqədərki əhalisinin dili ilə qohum

---

62 Меликишвили, Г.А. Наири-Урарту…, – с.130-131; Klengel, H. Lullubum. Ein Beitrag zur Geschichte der altvörderasiatischen Gebirgsvölker..., – s.359.

63 Ahmed Kozad. The Beginnings of ancient Kurdistan…, p.78.

64 Koschaker P. Neue Keilschriftliche Rechtsurkunden aus der el-Amarna-Zeit, Leipzig, 1928, s.53, № 1; Меликишвили, Г.А. Наири-Урарту..., с.131-132; Klengel, H. Lullubum…, ss. 358, 380; Saarisalo, A. New Kirkuk Documents Relating to slaves./ Helsingforsiae: Societes orientalis Fennica, – 1934, – pp.65-67.

65 Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı // Kubaba. Arkeoloji-Sanat tarihi-Tarih dergisi. – İstanbul, – Sayı 24, 18 aralık, 2015, – s.33-35; Scheil V. Textes élamites-semitiques (troisiéme série) / Mémoires de la Délegation en Perse. Paris. Tom IX, – 1907, – №№ 148, 245; Zadok R.. The Elamite Onomasticon. – Napoli Instituto Universitario Orientale, – 1984, – p.26-27.

olduğunu iddia edirdilər.[66] Köhnə elmi ədəbiyyatda lullubilərin elamlılara yaxın dildə danışdıqları haqqında fikirlər söylənilib. Lullubilərin dilindən yalnız bir söz −kiurum ("tanrı") – məlumdur. Adətən, bu termini Elam dilindəki kiri "ilahə" sözü ilə müqayisə edirlər.[67]

Lullubilər səma cisimlərinə (göy qurşağı, ay, günəş) və təbiyyət hadisələrinə (şimşək, külək) sitayiş edirdilər. Onların etiqadında harb ilahəsi də yer tuturdu. Yerli lullubi tanrılarından yalnız Nişba qeydə alınıb. Zaqros dağ silsiləsindəki zirvələrdən ilahə Nişbanın adını daşıyırdı. Aşşur hökmdarı I Tiqlatpalasarın kitabələrinin birində lullubilərin ölkəsində 25 tanrıya sitayiş olunduğundan xəbər verilir.[68]

Lullubilərin etnik adı mixi yazılı mətnlərdə sonuncu dəfə e.ə. VIII əsrin sonlarında qeydə alınıb. Maraqlıdır ki, Vaynax qrupu xalqların (çeçen, inquş) dilində lullubilərin etnik adına bənzər söz (*lûlaho*, *loalaho*) "qonşu" mənasında işlənir. Deməli, "lulu" (və ya "lullu") Urmiya hövzəsinin ən qədim xalqına kənardan verilmiş ad (ekzonim) olmuşdur.

"**Quti tayfaları**" adlanan IV fəsil dörd yarımbölmədən

---

[66] Hüsing, G. Der Zagros und seine Völker, eine archāologisch-ethnographische Skizze // Der Alte Orient, – Leipzig, – 1908, Band IX, ¾, – ss. 19-25; Frank, C. Fremdsprachliche Glossen in assyrischen Listen und Vokabularen // Mitteilungen der Altorientalischen Gesellschaft. – Wien, – 1928-1929, Band IV, heft 1, – s.42; Speiser, E. Mesopotamian Origins…, pp. 88, 100, 122, 163; Ungnad, A. Subartu..., ss. 18-23; Cameron, G.G. History of Early İran. / G.G.Cameron, – Chicago: University of Chicago Press, – 1936, p. 35; Gelb, I. Hurrians and subarians..., pp. 20, 40.

[67] Меликишвили Г.А. Наири-Урарту..., с.124-125; Алиев И. История Мидии…, с.83; Юсифов Ю. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона) / Вестник древней истории: Москва, – 1987, № 1 – с.37-38; Дьяконов И.М. Языки древней Передней Азии. / И.М.Дьяконов – Москва: Главна редакция восточной литературы, – 1967, – с. 87-88.

[68] Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millenium BC (1114-859 BC). / University of Toronto Press, – 1990, – p.34; Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı…, c.25; Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə..., № 5c, s.22.

ibarətdir və qutilərin (və ya kutilərin) hərbi-siyasi tarixinin öyrənilməsinə həsr olunub.

Birinci yarımbölmə "*Quti tayfalarının yayıldığı areal*" adlanır. E.ə. II minilliyin Aşşur mətnləri qutilərin iki regionda – Urmiya hövzəsində (Kutium və ya Qutium ölkəsində) və Şərqi Anadoluda (Kutmuhi ölkəsində) – qruplaşdığını göstərir. İraqın şimal-şərqindəki Raniyə düzündə onlar turukkularla, Süleymaniyyədən Avromandağ massivinə qədər uzanan ərazidə lullubilərlə qonşuluqda yaşayırdılar. Qutilərin elamlılar və kaşşularla təmas xətti Luristandakı dağlıq ərazilərdən keçirdi.

"*Qutilərin Mesopotamiya şəhərlərini işğal etməsi*" adlanan ikinci yarımbölmədə qutilərin hərbi-siyasi fəallığının birinci mərhələsi tədqiq olunur. Kutium ölkəsinin sakinləri hərbi münaqişələrdə ilk dəfə Adab şəhər-dövlətinin çarı Luqalannemunduya (e.ə. XXIV əsrin əvvəli) qarşı döyüşən koalisiyanın tərkibində iştirak etmişlər.[69] Akkad dövlətinə qarşı silahlı mübarizənin səmərəliliyini artırmaq üçün qutilər qonşu xalqlarla hərbi-siyasi koalisiyalarda birləşirdilər. O dövrdə hərbi demokratiya qanunlarına görə koalisiyanın lideri icma rəhbərlərinin və qoşun başçılarının 6 ildən bir keçirilən toplantısında seçildiyindən bu vəsifə irsən keçə bilməzdi.

Koalisiya ordusunun qarət məqsədli yürüşlərinin qarşısını almaq üçün Naram-Suen qarşılıqlı hərbi yardım haqqında Elam hökmdarı Hişebrasini (və ya Hişebratep) ilə bəşər tarixinin ilk beynəlxalq müqaviləsini bağlamışdır. Qutilərin ilk siyasi liderlərindən olan Helu Hişebrasinini hakimiyyətdən kənarlaşdıraraq elamlıların ilk siyasi mərkəzi olan Avana (Luristanda) sahiblənmişdir. Koalisiyanın növbəti başçısı İhtaanın (və ya Hitaa) zamanında Avan siyasi mərkəz funksiyasını davam etdirdiyindən elamlılar tarixi ənənədən irəli gələrək hər iki lideri özlərinin hökmdar siyahısına daxil etmişlər. Akkad dilində tərtib olunmuş hökmdar siyahısında bu iki liderdən sonra Puzur-İnşuşinak adlı elamlının (əsil ismi Kuktik-İnşuşinak) adı qeyd olunub. Suz şəhərinin baş kahini və Elamın hökmdarı Kuktik-İnşuşinak vaxtı ilə

[69] Ungnad, A. Subartu…, ss. 31, 36.

Akkad dövləti ilə bağlanan müttəfiqlik aktının şərtlərindən çıxış edərək Cənubi Urmiya hövzəsinə, eləcə də Kutium və Simaşki ölkələrinə hərbi yürüş təşkil etmişdir. Bu qalibiyyətli yürüşdən sonra onun titullarına daha biri – "Avanın hakimi" əlavə olunmuşdur. Şumer hökmdar siyahılarının birinin "Quti sülaləsi" hissəsində onun ismi abreviatur formada – "İnkişuş" – göstərilir və qutilərin ölkəsində 7 il şahlıq etdiyi bildirilir. Qutilərin lideri Sarlaq Mesopotamiyanın cənubuna uğursuz basqın etmiş və Akkad hökmdarı Şarkalişarri ilə döyüşdə asir alınmışdır. Yeni lider Yakulaba (Şumer hökmdar siyahısında Yakillaqab) Kuktik-İnşuşinakı hakimiyyətdən devirərək qutilərin hakimiyyətini bərpa etmişdir.[70] E.ə. 2133-cü ildə qutilərin növbəti lideri Enridapizirin başçılığı ilə koalisiya qüvvələri Akkad dövlətini devirirlər. Legitimlik müddəti bitən Enridapizir hakimiyyəti oğluna devr etdiyinə görə subarlar və lullubilərlə yaradılan hərbi koalisiya parçalanır və onun torpaqlarında 20 il ərzində ikihakimiyyətlilik hökm sürür. Ərazi hüdudları stabil olmadığından tayfa birliklərinin inzibati bölgü sistemi olmurdu və lider dəyişdikcə idarəçilik mərkəzi də yeni liderin iqamətgahının yerləşdiyi məkana keçirdi. İkihakimiyyətlilik dövründə Qutium ölkəsində 5 dəfə (Erridupizir, İbate, Yarlanqab, Kurum, Habilkin), Simurruda 2 dəfə (İnima-Nişba və Yarlaqab) hakimiyyət dəyişikliyi baş vermişdir. Namar vilayətində (Diyala çayının orta axarı) yerləşən quti icmasının başçısı Lisir (və ya Lasir, Lasirab) ikihakimiyyətliliyə son qoymuşdur.[71]

E.ə. 2107-2086-cı illəri qutilərin Cənubi Mesopotamiyada ağalığının "intibah dövrü" adlandırırlar. O dönəmdə bərqərar olan siyasi sabitlik Şumer şəhərlərində təsərrüfat sahələrinin inkişafına təminat yaratmışdı. Quti liderləri ilk vaxtlardan Şumer şəhərlərinin idarəçiliyini yerli əhalinin nüfuzlu nümayəndələrinə həvalə etmişlər; məqsəd bu şəhərlərdən alınan xəracın maneəsiz

[70] Алимирзоев А. О времени правления аванского царя Кутик-Иншушинака / Проблемы истории, филологии и культуры. – Москва, – 2019, № 3 (65), – с.20-33; Алимирзоев А. Кто был третьим правителем Кутиума / Проблемы истории, филологии и культуры. – Москва, – 2018, 4 (62), с.42-48.

[71] Əlimirzəyev, A. Erkən Elam cəmiyyəti ..., s. 23-24, 51-53.

çatdırılmasını təmin etmək idi. Təsərrüfat hesabatlarının dəqiqliyini və operativliyini təmin etmək məqsədilə sənədlərdə uçot əməliyyatlarının ilini, ayını və gününü göstərilir, işçilərin haqqı ərzaq məhsulları ilə yanaşı, paltarlıq parça, hətta tunc və gümüş külçələrlə ödənilirdi.

"*Mesopotamiyada qutilərin hakimiyyətinin sonu*" adlanan üçüncü yarımbölmədə qutilərin Şumer-Akkad şəhərlərində siyasi nüfuzunun süqutu və e.ə. II minilliyin hadisələrində fəaliyyətləri tədqiq olunmuşdur. Təbliğata hesablanan siyasi məzmunlu mətnlərdən görünür ki, yerli əhalinin istismarı dözülməz hala gəldiyindən e.ə. 2086-cı ildə Şumer şəhərlərində qutilərə qarşı ümumxalq hərəkatı baş verir və sonuncu quti çarı Tirikanın hakimiyyəti devrilir.[72]

E.ə. XIX-XVIII əsrlərin qovşağında Aşşur dövlətinin şimal-şərq sərhədləri yaxınlığında qarşılıqlı ərazi iddiaları ilə əlaqədar qutilərin və turukkuların hərbi fəallığı artır. Bu qarşıdurmalarda qutilər qonşu kakmi tayfası ilə harbi ittifaq yaratmaqla Turukku-Ahazum cəbhəsinə qarşı döyüşürdülər. I Şamşi-Adad (1824–1780 гг. до н.э.) qızını qutilərin lideri Enduşşe ilə evləndirmək və cehiz olaraq turukkuların Şuşarra şəhərini ona verməklə qutilərin turukkularla olan ədavətini aradan qaldırmağa çalışırdı. Görülən diplomatik səylər nəticəsində bir müddət tərəflər arasında irimiqyaslı hərbi əməliyyatların qarşısını almaq mümkün olmuşdur. Bir qədər sonra turukkuları dəstəkləyən Elam hökmdarları Şuruxdux 12 minlik qoşununu Enduşşe ilə döyüşə yollamışdır.[73] E.ə. 1764-cü ildə qutilər elamlıların Babilistan hökmdarı Hammurapiyə qarşı yaratdıqları hərbi bloka qoşulurlar, lakin bu koalisiya məğlubiyyətə uğramışdır.[74] Az vaxtdan sonra elamlıların

---

[72] Əlimirzəyev, A. Qutilərin Şumerdə inzibati idarəçiliyinin xüsusiyyətləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – Bakı, – 2018, № 3 (63), – s. 253-259; Əlimirzəyev, A. Qutilərin Şumerdə son döyüşü // Milli təhlükəsizlik və hərbi elmlər. – Bakı, – 2017, – s.34-37.

[73] Lossoe J. The Shemshara Tablets. A preliminary report. / J. Lossoe, – Köbenhavn: Meddelelser udgivet af Det Kongelige Danske Videnskabs Selskab, – 1959, – pp. 37, 44-45, 53-55.

[74] Хинц В. Государство Элам. / В.Хинц, – Москва: Наука, – 1977, – с. 94.

dəstəyilə Puluh adlı quti lideri 10 minlik qoşunla Cənubi Mesopotamiya şəhərlərinə yürüş etmişdir. Qutilərin digər dəstəsi Şubat-Enlildə (indiki Suriyada Təll-Leylan) yerləşdirilmiş Elam hərbi kontingentinin tərkibində fəaliyyət göstərirdi. Bu dəstəyə Navaritum adlı qadın başçılıq edirdi. O, Larsa şəhərinin (indiki İraqda Senkere) alınması uğrunda gedən döyüşlərdə əsir düşsə də, sonradan azad edilmişdir. Muzdlu quti döyüşçüləri Mari şəhər-dövlətinin ordusuna da cəlb olunmuşlar; onlardan birinə Biqan adlı quti əsilli komandan başçılıq edirdi.[75] Xeyli sonralar Babilistanın kaşşumənşəli hökmdarı II Aqum (e.ə. 1595-1571) qutiləri məğlub etmişdir.[76]

E.ə. XIII əsrin əvvəlindən Anadolunun şərqində, Tur-Abdin dağı bölgəsində qutilərin qərb qrupunun yaratdığı Kutmuhi (və ya Katmuhi) çarlığı regionda Aşşur dövlətinin işğal siyasətinə müqavimət göstərən aparıcı siyasi quruma, anti-Aşşur qüvvələrin konsolidasiya mərkəzinə çevrilir. I Adadnerarinin, I Salmanasarın, I Tukulti-Ninurtanın, Aşşur-reş-işinin və I Tiqlatpalasarın orduları Kutmuhiyə və onun qoşulduğu koalisiyaya qarşı uğurlu əməliyyatlar aparmışlar.[77]

"*Qutilərin etnik xüsusiyyətləri*" adlanan dördüncü yarımbölmədə qutilərin etno-dil mənsubiyyəti ilə bağlı məsələlərə toxunulur. İlk vaxtlar qutiləri hind-Avropa mənşəli xalq hesab edirdilər. Mühüm arqument kimi e.ə. II minillikdə Babilin hüquqi sənədlərində quti və subar mənşəli qullara **namruti** ("bəyaz", "parlaq") ifadəsinin tətbiq olunduğu göstərilirdi. Sonralar müəyyən olundu ki, bu ifadənin zahiri görünüşlə heç bir əlaqəsi yoxdur.[78]

---

[75] Eidem, J., Lossoe, J. The Shemshara Archives 1. The Letters …, p. 32; Hallo, W.W. Gutium…, – p. 716.

[76] Kohler J., Ungnad A. Assyrische Rechtsurkunden. / J. Kohler, A. Ungnad – Leipzig: E.Pfeifer, – 1913, – №16.

[77] Luckenbil, D. D. Ancient Records of Assyria and Babylonia, Vol..I, §§ 73, 117, 138, 142, 143, 149, 152, 155, 164, 171, 190; Дьяконов, И.М. Ассиро-вавилонские источники по истории Урарту…, тексты №№ 3-5, 7, 10-13, 20-23, 26.

[78] Hilprecht H. The Early Version of the Babylonian Deluge Story and the Temple Library of Nippur. / H.Hilprecht, – Philadelphia: Published by the University of Pennsylvania. 1910, p.32; Smith, S. Early History of Assyria. / S.Smith, – London: Chatto and Windus, – 1928, Vol.I – p. 72-73; Christian,

1962-cı ildə ingilis şərqşünası U.Henninq qutilərlə hind-Avropalıların qohumluğu ideyasını yenidən aktuallaşdırmışdı. O, "quti" etnonimini toxar tayfalarının sanskrit adı ilə ("kuçi") əlaqələndirir və ehtimal edir ki, quti-toxarlar e.ə. II minilliyin əvvəllərində yaşadıqları Mərkəzi Zaqrosu (Tukriş ölkəsini) tərk edib, Orta Asiyadan keçməklə, Şərqi Türküstana miqrasiya etmişlər.[79] Quti hökmdar isimlərinin türk dillərindən izahına da təşəbbüs göstərilmişdir.[80]

1930-cu illərdə alman aşşurşünası A.Unqnad qutilərin dilini hurri-biayni (Urartunun dili) etnomədəni birliyinə daxil etmişdir. İ.M.Dyakonov və İ.H. Əliyev hurri-biayni dillərində başlanğıc K-foneminin qeyri-sabit olduğunu nəzərə alaraq "quti" etnonimini Qafqaz Albaniyasının sakinlərindən olan utilərin etnik adı ilə eyniləşdirilməsini təklif etmişlər. Ola bilsin ki, "kuti" (və ya "quti") etnonimi hurri-biayni dillərinin leksemləri ilə, məsələn, kute- ("gəlib çatmaq", "mənzil başına yetişmək") sözü ilə (feilin təsirli forması: kutubi-, təsirsiz forması: kuteadi-) izah olunmalıdır.[81]

---

V. Das Erste Auftreten der Indogermanen in Vörderasien // Mitteilungen der Anthropologischen Gesellschaft in Wien. – 1928, Band 58, – s.223; Speiser E. A. Mesopotamian Origins. The Basik Population of the Near East. – Philadelphia, – 1930, – pp. 101-108; Ungnad A. Subartu…, s. 105.

79 Гамкрелидзе Т., Иванов В. Первые индоевропейцы в истории: предки тохар в древней Передней Азии // Вестник древней истории: Москва, – 1989, № 1, – с. 14-21.

80 Bayram S. Kaynaklara göre Güney-Doğu Anadolu'da prototürk izleri. / S.Bayram, – Ankara: Türk dünyası araşdırmaları Vakfı, – 1988, – s.76-77; Balkan, K. Relations between the language of the Gutians and Turkish: Eski Önasiya'da Kut (ve ya Gut) halkının dili ile eski türkce arasındakı benzerlik / K.Balkan, – Erdem. Cilt: 6/1, Ocak, 1990, Sayı: 16. Ayrıbasım. – Ankara, – 1992, – s.16-18, 26-33, 37-38; Pekşen O. Eskiçağ Önasya tarihinde Gutiler // Turkish Studies-Historical Analises, – 2020, March, Cild 15, Sayı 1, – s.247, 256; Mirzəyev M. Qədim Azərbaycan-Mesopotamiya əlaqələrinə dair (Mesopotamiyada quti hakimiyyətinin başlanğıcından III Ur sülaləsinin sonuna qədər) // – Bakı, – Tarix və onun problemləri, – 2003, 2, – s. 10.

81 Ungnad A. Subartu…, s. 151; Алиев И. История Мидии…, с. 65-67, 82, прим. 8, с. 156; Дьяконов И.М. Языки древней Передней Азии..., – с. 23, 88; Дьяконов, И.М., Старостин, С.А. Хуррито-урартские и Восточнокавказские языки / Дьяконов И.М., Старостин С.А. – Древний Восток. Этнокультурные связи. – Москва: Наука, – 1988, – с.166.

Qədim lüğətlərdə quti dilindən iki nümunə qeydə alınıb: “harambi” və “elinu” bitki adları. “Sidr ağacı” mənasında işlənən birinci termin şumercə erem (və ya eren), akkadca erennu, hurricə erembi kimi səslənirdi.[82] Quti şəxs adlarında aşağıdakı hurri-biayni morfemləri diqqəti cəlb edir: ab (“ön”, “əvvəl”), anda (hökmdar titulu), yarla (hökmdar titulu), erridu (“döyüşçü”,”qoşun”) və s.

Quti çarlarının adından tərtib olunmuş mətnlərdə Mesopotamiya tanrıları (Enlil (“Külək”), Şamaş (“Günəş”), İştar (məhəbbət və hərb ilahəsi), Ninhursaq (dağların ilahəsi), Nintu (həyat ilahəsi), Suen (“Ay”), İlaba (hərfən “Ağsaqqal tanrı”) xatırlanır. Qutilərin baş tanrısının adı etnik adlarına uyğun səslənirdi və o, e.ə. XXV əsrə aid tanrılar siyahısında qeydə alınıb. Bu teonim hurri orfoqrafiyasında “Kutiuhe” kimi səslənirdi.[83] Digər analoji siyahıda şumerlilərin hərb tanrısı Ninurtaya qarşılıq olaraq qutilərin Abublab adlı tanrısı xatırlanır.[84] Göytəpədən (Urmiya gölünün qərb sahilində) aşkara çıxarılmış qəbir abidə qutilərin axirət dünyası ilə bağlı inancları haqqında müəyyən təsəvvür yaradır. Bu məskənin sakinləri ölülərini torpaq qəbirlərdə, ya da daş qutularda dəfn edirdilər. Kollektiv məzarların birində 7 insan skileti yerləşdirilib; əsas skillet saxsı qab və qurbanlıq qoyunun sümüklərilə müşayiət olunub.[85]

Dissertasiyanın **“Urmiya hövzəsi Elam höklmdarlarının xarici siyasətində”** adlanan V fəsli dörd yarımbölmədən ibarətdir.

“*Su adamları” ifadəsi və Simaşki konfederasiyasının lokalizasiyası*” adlanan birinci yarımbölmədə terminologiya ilə bağlı məsələyə toxunulur. Qutilərin Cənubi Mesopotamiyada hakimiyyəti devriləndən dərhal sonra Ur-Nammu Elamın paytaxtı Suzu yerləşdiyi düzən ərazi ilə birlikdə III Ur-Şumer dövlətinin

---

[82] Frank, C. Fremdsprachliche Glossen in Assyrischen Listen.... – s. 41; Balkan, K. Eski Önasiya’da…, – s. 50-51; Хачикян, М. Л. Хурритский и урартский языки. / М. Л. Хачикян, – Ереван: Издательство АН Арм. ССР, – 1985, – с.52.

[83] Alberti, A.A. Reconstruction of the Abu Salabikh God-List / Studi Epigrafici e Linguistici sul Vicino Oriente. – Roma, – 1985, 2, – p. 11; Laroche E. Glossaire de la Langue Hourrite..., s.157.

[84] Hallo, W.W. Gutium…, – p. 719.

[85] Алиев, И. История Мидии…, – с. 159-160.

tərkibinə qatır və elamlılar siyasi mərkəzlərini indiki İlam və Luristan vilayətlərinin torpaqlarına köcürməli olurlar. III Ur-Şumer dövlətinin rəsmi təsərrüfat sənədlərində və şumerdilli bədii mətnlərdə elamlıların yeni dövləti bəzən LÚ.SU., LÚ.SU.A., LÚ.SU.Kİ. (hərfən "Su adamları", "Su adamlarının ölkəsi") loqoqramları ilə ifadə olunurdu. "Su adamlarının ölkəsi" ərazi prinsipinə uyğun, münbit vadi və dağətəyi zonalar üzrə qurulmuş konfederativ dövlət olmuşdur və onun şimal hüdudları Cənubi Azərbaycanadək uzanırdı. Bunu nəzərə alaraq 1993-cü ildən ali məktəb dərsliklərimizə Urmiya gölü hövzəsində məskunlaşan qədim etnoslar sırasına daha biri, "su" tayfa birliyi əlavə olunmuşdu. Sübut olunub ki, tarixdə "su" adlı etnik qrup olmayıb, deyilən loqoqramlar isə Akkad (şərqi sami) dilində tərtib olunmuş kitabələrdə "Simaşki" (Elam mətnlərində "Simaş") adlanan ölkənin rebuslu yazılış forması olmuşdur.

"*Simaşki konfederasiyasının siyasi tarixi*" adlanan ikinci yarımbölmədə Simaşki konqlomeratının Mesopotamiya dövlətləri ilə əlaqələri tədqiq olunur. Konqlomeratın mərkəzi olana qədər Akkad hökmdarları I Sarqon, Rimuş, eləcə də Elam şahı Kuktik-İnşuşinak, III Ur-Şumer dövlətinin hökmdarı Şulqi Simaşkidə uğurlu hərbi əməliyyatlar aparmışlar.

E.ə. 1983-cü ildə Elam-Simaşki hərbi koalisiyasının təzyiqi ilə şumerlilərin sonuncu dövləti – Ur şəhərinin III sülaləsi devrilmişdir.[86] Simaşki şahlığının səkkizinci hökmdarı Tan-Ruhuraterə (e.ə. 1940-1920) məxsus iki toppuz başlığının Həsənli yaşayış yerində tapılması Urmiya hövzəsinin cənubunun bir müddət elamlıların siyasi nəzarətində olduğunu təsdiq edir.[87]

Təxminən e.ə. 1880-cı ildə Larsa şəhər-dövlətinin hökmdarı Qunqunumla müharibədən sonra Simaşki siyasi qurum kimi parçalanır və Canubi Urmiya hövzəsinin tarixində yerli tayfaların dağınıq icmalarının müstəqil siyasi qüvvə halında fəaliyyəti üçün yeni reallıqlar yaranır.

---

[86] Michalowsky, P. The Lamentation over the destruction of Sumer and Ur. / P. Michalowsky. – Winona Lake: Eisenbrauns, – 1989 , – pp. 33-39.

[87] Dyson, R. Hasanlu 1972 / Proceedings of the 1st annual simposium of Archaeological Research in Iran, – Tehran, – 1972, – pp.1-9.

"*Simaşki sakinlərinin etnik xüsusiyyətləri*" adlanan üçüncü yarımbölmədə onomastik və toponimik materialın təhlili konqlomeratın fərqli etnik qruplardan təşkil olunduğu təsdiq edir. Şumer çarı Şu-Suenin (e.ə. 2036-2028) mətnində konqlomeratın tərkibindəki 6 vilayət (Zabşali, Karda, Siqris, Nibulmat, Şatilu, Alumiddatum) və iri yaşayış məskənləri (Nişqanelum, Tirmium, Sisirtum, Azahar (və ya Zahara), Pulma, Arahir, Zitanu, Lulubim və s.) sadalanır. Suzdan tapılan akkaddilli hökmdar siyahısında hakimiyyət müddəti göstərilmədən Simaşkinin elammənşəli 12 ali hökmdarının ismi xatırlanır. Onların zamanında Simaşki vilayətləri yerli icmaların liderləri (Zabşalidə Ziringu və İndasu, Nuşuşmarda Titi, Siqrisdə Bunirmi, Arahirdə Barihiza, Lulubumda Vabartum və İrib) tərəfindən idarə olunurdu.[88] Siyasi hakimiyyət elamlıların əlində olsa da, Simaşki sakinlərinin panteonunda subar-hurri tanrıları (Teşşup, Şauşka, Aştupinu, Zizanu) önəmli yer tuturdu.[89]

"*Urmiya hövzəsi Elamın İqehalki sülaləsinin hərbi siyasətində*" adlanan dördüncü yarımbölmədə Simaşki konqlomeratının süqutundan sonrakı uzunmüddətli fasilədən sonra elamlıların Urmiya hövzəsindəki ikinci dəfə möhkəmlənmək cəhdləri tədqiq olunur. Bu cəhd İqehalki sülaləsinin nümayəndəsi Şilhak-İnşuşinakın (e.ə. 1150-1120) irimiqyaslı hərbi əməliyyatları ilə başlamışdır. Kaşşu və quti-lullubi məskənlərini viran qoyan Elam ordusu Urmiya gölünün cənub sahilindəki məntəqəyə qədər irəliləyə bilmişdir.[90] Lakin qısa vaxtdan sonra Babilistan hökmdarı I Nabukudurriusur (1124-1103) Diyala çayının orta axarına yürüş təşkil etməklə elamlıların regionda möhkəmlənmək cəhdlərinin

---

[88] Юсифов, Ю. Ранние контакты Месопотамии с северо-восточными странами..., – с.32-34; Gelb I., Kienast B. Die Altakkadischen Königsinschriften..., – ss. 317-320, 348-354; Curtis, J. Ancient Persia. / J. Curtis, – Cambridge: Trustees of the British Museum, – 1990, – p. 5, fig. 1; Steinkeller P. New Light on Šimaški and its Rulers / Zeitschrift für Assyriologie, – Berlin, – 2007, Band 97, – pp. 216-217, fig. 1; Steinkeller, P. On the identity of the toponims LÚ.SU.(A). / Journal of American Oriental Society. – Boston, – 1988, Vol. 108, – pp. 198-200.

[89] Ungnad, A. Subartu…, – s. 66.

[90] König F.W. Die Elamische Königsinschriften. / F.W.König, – Graz: Selbstverlag, – 1965, – №№ 54, 54a, ss.128-132.

qarşısını ala bilmişdir.

Dissertasiyanın **“Turukkular. Urmiya hövzəsinin cənub-qərbi e.ə. XIX-XVIII əsrlərdə”** adlanan VI fəsli iki yarımbölmədən ibarətdir və burada e.ə. XIX əsrin sonlarında Raniyə, Bukan, Solduz-Uşnu ovalıqlarında hurri dilində danışan etnik qrupların fəallaşması ilə əlaqədar yaranan hərbi-siyasi reallıqlar tədqiqat obyekti seçilmişdir.

Birinci yarımbölmə “*Turukku tayfalarının ərazi münaqişələrində iştirakı*” adlanır. Babil ədəbi ənənəsi anti-Akkad koalisiyasının tərkibində turukkuların İlşünail adlı liderini və kaşşu icma başçısını xatırlanır.[91] Naram-Suen haqqında eposlar tərtib olunan vaxtlarda hər iki etnik qrup babillilərlə düşmən münasibətdə olduqlarından bu informasiya tarixi fakt yox, bədii retrospeksiya kimi dəyərləndirilməlidir. E.ə. XIX əsrin sonlarından turukkular siyasi arenada bir neçə tayfa birliyi ilə təmsil olunurdular. Solduz-Uşnu vadisində yerləşən İtabalhumda (mərkəzi Kunşum şəhəri) hakimiyyət Tukukti adlı liderdən oğlu Pişendenə və sonralar nəvəsi Tabituya keçmişdir. Bu kiçik sülalə hakimiyyəti daha sonra Uştanşarri və onun oğlu Turuktinin idarəçiliyi ilə əvəzlənmişdir. Zutlumda yerləşən siyasi qurum Kiqirza və Berdiqendae tərəfindən idarə olunurdu.Turukkuların Raniyə ovalığında yerləşən Kusanarhum adlı digər tayfa birliyində hakimiyyət Naşşumarla onun oğulları Taruqur və Şurtinin tabeliyində olmuşdur. Turukkuların başqa bir siyasi qurumu Utumda fəaliyyət göstərirdi. Lidaia adlı turukkulu Burullum çarlığını idarə edirdi.

Sadalanan turukku hakimləri Aşşur hökmdarı I Şamşi-Adad və onun oğlu İşme-Daqanla diplomatik danışıqlar aparır, qutilərlə sərhəd münaqişələrində iştirak edir, Babilistan şahı Hammurapiyə qarşı fəaliyyət göstərən koalisiyalara qoşulurdular.

O zaman qutilər bölgə üçün ən destruktiv qüvvə sayılırdı; onlar münbit torpaqlar və tranzit əhəmiyyətli şəhərlər uğrunda turukkularla mübarizə aparırdılar. Aşşur hökmdarı İşme-Daqan Zazia ilə sülh müqaviləsi imzalamış və onun qızını oğluna almaqla bu ittifaqı diplomatik nikahla möhkəmləndirmişdir. Nəticədə

---

[91] Westenholz, J. The Legends of Kings of Akkad…, p.249-253.

turukkular vaxtı ilə itirdikləri Şuşarra şəhərini, digər ərazilərlə birgə döyüşsüz geri qaytara bilmişlər. Turukku ölkəsi sonuncu dəfə Aşşur çarı I Adad-Nerarinin (e.ə. 1307-1275) kitabəsində yad edilib.[92]

"*Turukkuların etnik xüsusiyyətləri*" adlanan ikinci yarımbölmədə turukkulara məxsus onomastik materialın təhlili aparılır. Şəxs adlarının (sadalananlardan əlavə, Ardiqandi, Zilia, Tirveşenni, İrtahum, Kubia, Kuşia, İkişkibal, Kudukadi, Vilanum, Nipram, Tirnanum və s.) zahiri əlamətlərinə görə tədqiqatçıların bir qrupu turukkuları Subartu ölkəsinin ən qədim sakinlərinə, digərləri isə etnik baxımdan hurrilərə qohum olan yarımköçəri maldar xalq hesab edir. Əsasən dağlıq bölgələrdə yaşayan hurrilər (etnonimin kökündə akkadca hurrum "dağ" sözü durur) turukkuları məskunlaşdıqları ərazinin düzən relyefindən (turi "aşağı" sözündən) irəli gələrəd "aşağıdakılar" (turihi və ya turišše) adlandırırdılar. Elmi ədəbiyyatda turukkuların türkmənşəli olmasına dair fikirlər söylənilib.[93]

Dissertasiyanın **"Urmiya hövzəsi e.ə. XVII-XI əsrlərdə"** adlanan VII fəsli dörd yarımbölmədən ibarətdir və Urmiya hövzəsinin nisbətən azsaylı etnik qrupları – kaşşu, kakmi, muşk, ukuman, mehri tayfaları haqqında məlumatlar təhlil və tədqiq olunur.

"*İctimai və iqtisadi münasibətlərin yeni mərhələsinə keçid*" adlanan birinci yarımbölmədə XVI-XI əsrlərdə Urmiya hövzəsində siyasi vəziyyətə təsir edən əsas hadisələr haqqında məlumat verilir.

---

[92] Klengel H. Das Gebirgsvölk der Turukku in den Keilschrifttexten altbabylonischer Zeit // Klio. Beitrage zur Alten Geschichte: Berlin, – 1962, Band 40, – s.9; Eidem, J., Lossoe, J. The Shemshara Archives 1..., p.26-27; Eidem, J., Lossoe J. The Shemshara Archives 2…, – pp. 26-27, 52-57; Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr..., №№ 15. 17, 19, 20, 25; Лессёэ, Й. Древние ассирийцы…, сс. 48-49, 123, 237; Дьяконов, И.М. Ассиро-вавилонские источники по истории Урарту..., № 1.

[93] Ямпольский, З.М. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Учёные записки Азербайджанского государственного университета, – Баку, – 1966, № 2, – с. 63; Bayram, S. Kaynaklara göre Güney-Doğu Anadolu'da prototürk izleri. / Bayram S. – Ankara, – 1988, – s. 92; Azərbaycan tarixi. I cild. Ən qədim zamanlardan XX əsrədək / Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. / – Bakı: Çıraq, – 2007, – s. 77-80, 84.

E.ə. 1595-ci ildə Babilistan şahlığında siyasi hakimiyyəti ələ keçirdikdən az sonra kaşşu hökmdarları qutilərə qarşı hərbi əməliyyat həyata keçirməklə Cənubi Urmiya hövzəsində möhkəmlənməyə çalışırlar. Həsənlidə kaşşulu I Kadaşman-Enlilə (e.ə. 1374-1360) məxsus daş su qabı və onun müttəfiqi Aşşur hökmdarı Aşşurubalitin tunc toppuzu aşkar olunmuşdur. Növbəti onilliklərdə kaşşuların Urmiya hövzəsinə siyasi nəzarəti tədricən heçə enir və bölgənin yerli tayfaları aşşurluların və elamlıların hərbi müdaxiləsinə müqavimətlərini davam etdirirlər. E.ə. 1158-ci ildə öncə I Aşşurdan, ardınca Elam hökmdarı Şutruk-Nahhunte Babilistana ağır zərbə vururlar. Enlil-nadin-ahhenin başladığı müqavimət hərəkatı amansızlıqla yatırılır və 1156-cı ildə kaşşuların Babilistanda 440 illik hakimiyyətinə son qoyulur. Kaşşuların Cənubi Urmiya hövzəsində təkrarən möhkəmlənmək cəhdləri Babilistanın cənubunda yeni sülalənin təməlini qoyan kaşşu icma başçılarından Simbar-Şipakın (e.ə. 1025-1008) adı ilə bağlıdır. Marağada onun hakimiyyətinin legitimliyini simvolizə edən tunc qılıncı tapılmışdır.[94]

"*Kaşşular-kaspilər*" adlanan ikinci yarımbölmədə kaşşuların etno-dil mənsubiyyətinə dair araşdırmalar yer alır. Kaşşularin dilində tərtib olunmuş mətn məlum deyil. 40-a yaxın teonim (tanrı adı), 230-a qədər antroponim (şəxs adı), 40-dan çox at ayaması, 30-dan artıq söz, 8 bitki termin məlum olsa da, bu material kaşşuların etnik mənşəyini müəyyənləşdirməyə yetmir. Tədqiqatçılar onların dilini elamlıların, hurrilərin, hətta hind-Avropa mənşəli xalqların dillərinə bağlamağa təşəbbüs göstərmişlər.[95] Eə. I minilliyin birinci yarısında Urmiya hövzəsinin bəzi siyasi qurumlarında (Manna, Allabria, Namar,

[94] Дандамаев, М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. / М.А. Дандамаев, В.Г. Луконин, – Москва: Наука, – 1980, – с.52-56; Radner, K. Ein Bronzedolch der Simbar-Sipak von Babylon (1025-1008). Überlegungen zu Waffenweihungen im Vorderen Orient / Radner K., Kroll S. – Zeitschrift für Assyriologie – Berlin – 2006, Band 96, – ss. 212-216.

[95] Pinches G.T. The Language of the Kassites // Journal of Royal Asiatic Society, – London, – 1917, Vol. 49, issue 1, – pp.101-114; Balkan, K. Kassitenstudien 1. Die Sprache der Kassiten. / K.Balkan. – New Haven: Connecticut, – 1954. – 238 s.; Fournet A. The cassite Language in a Comparative Perspective with Hurrian and Urartian // The Macro-Comporative Journal, – 2011, 2(1), – pp.1-19.

Halhubarra, Nairi) liderlər kaşşumənşəli "yanzi" titulu daşıyırdılar.[96] İran dağlıq yaylasının müxtəlif yerlərinə yayıldıqlarından antik dövr müəllifləri kaşşuları kaspi, kissi, kossey kimi lokal qruplara bölmüşlər.

Üçüncü yarımbölmə "*Kakmililər və muşk tayfaları*" adlanır. Urmiya gölündən cənub-qərbdə yerləşən Kakmium çarlığı haqqında ilk məlumat Ebla şəhər-dövlətinin arxivinin sənədlərində (e.ə. XXIV əsrin sonları) qeydə alınıb. Sonralar kakmililərin lideri Banana Anubanininin başçılıq etdiyi anti-Akkad hərbi blokuna qoşulmuşdu. Kakmililər e.ə. XVIII əsrin əvvəllərində qutilərin yaratdığı hərbi bloka qoşularaq turukkulara qarşı mübarizə aparırdılar. Həmin vaxt kakmililərə Muşkave adlı çar rəhbərlik edirdi. Muşkave turukkuların Kiqibişe vilayətinə yürüş etmiş, oradan 100 baş qoyun, 10 baş qaramal və xeyli əsir aparmışdır. Turukkuların Kabra vilayətinin başçısı Ardiqande 2000 nəfərlik döyüşçü ilə Kakmiuma yürüş etmişdir. Qarşılıqlı ərazi iddiaları səbəbindən kakmiyalıların və qutilərin turukkularla yaranan gərgin münasibətləri təxminən yarım əsrdən sonra Hammurapiyə qarşı mübarizədə hərbi müttəfiqliyə çevrilmişdir. E.ə.1755-ci ildə Hammurapinin bu koalisiya üzərində qələbəsindən sonra kakmiyalıların bir qismi Babilə köçürülmüşdür.[97]

Mənbələrin məlumatına görə e.ə. XVIII yüzillikdə kakmililərdən şimal-qərbdə muşk tayfası yaşayırdı. E.ə. 1163 və 1113-cü illərdə muşklar naməlum səbəblərdən kütləvi surətdə Alzi və Purulumzi ölkələrinə (Türkiyənin şərqində Elazıq-Muş bölgəsi) köç etmişlər.[98]

"*Ukuman və mehri tayfaları*" adlanan dördüncü yarımbölmədə Urmiya və Van gölləri arasındakı dağlıq ərazilərin sakinləri haqqında məlumatlar toplanmışdır. Ukumanilər (və ya kumanlar) Aşşur dövlətinin işğal siyasətinə qarşı mübarizədə Dəclənin yuxarı axarında yaşayan xalqlarla ittifaqda döyüşürdülər. Əlimizdə kifayət qədər dil materialı olmadığı üçün (yalnız akkadmənşəli Abulee hökmdar ismi (hərfən" Atam fərasətlidir") məlumdur) ukumanilərin

---

96 Luckenbil, D.D. Ancient Records of Assyria and Babylonia..., Vol. I, §§ 573, 637, 639, 682; Vol. II, §§ 13, 21, 56, 147, 168; 143.

97 Westenholz, J. The Legends of Kings of Akkad…, – p. 249-250; Eidem J., Lossoe J. The Shemshara Archives…, pp. 24, 44-45, 53, 57, 114-115.

98 Mahmudov, Y. Real tarix və "Böyük Ermənistan" uydurması. / Y.Mahmudov – Bakı: Turxan, 2014, – s. 19-29.

etnik mənşəyini təyin etmək mümkün deyil.

Quti-ukuman hərbi ittifaqlarına Mehri "ölkəsinin" sakınləri də qoşulurdular.[99] Ölkənin adı Akkad dilinnin lüğət fonduna keçən "mehru" termininə müvafiq olaraq mənalandırıla bilər; aşşurlu mirzələrin bu termini gah "ağac", gah da "kol" determinativləri ilə bildirmələri təsadüfi deyildir. Urmiya gölündən şimal-qərbdəki ərazilərin və həmdüdud bölgələrin relyefi və iqlimi üçün xarakterik olan ardıc həm ağac, həm də kol növü olan yeganə bitkidir. Aşşurlular hərbi əməliyyatların sonunda Mehridən tikinti materialı olaraq ardıc ağacları aparırdılar. Istisna deyildir ki, müasir Mehri ölkəsinin və eyniadlı inzibati bölgənin (Qərbi Zəngəzurda) adları bu ağacın adı ilə bağlı yaranıb.

Dissertasiyanın səkkizinci fəsli "**Azərbaycan dilinin lüğət fondunun formalaşmasında Urmiya hövzəsi etnoslarının rolu**" adlanır. Müxtəlif xalqların gil kitabələrində türkmənşəli sözlərin qeydə alınması faktına əsaslanan bəzi tədqiqatçılar belə qənaətə gəlmişlər ki, türkdilli xalqların vətəni uzaq Altaylarda deyil, Azərbaycan tarixi cənub torpaqlarında yerləşirdi. Sonuncu fəsildə dilimizdə işlənməkdə olan 100 sözün qədim Şərqin relikt dillərindəki ilkin formaları ilə müqayisəsi verilir. Bizim gəldiyimiz qənaət belədir ki, "türkmənşəli" hesab olunan və dilimizdə indi də işlənən terminlər Urmiya hövzəsində yaşamış əcdadlarımızın dilinə e.ə. III-I minilliklərdə onlarla təmasda olan xalqların dillərindən keçmiş və Altaylara köçmüş tayfalar vasitəsilə türk xalqlarına ötürülmüşdür. Elm aləmində yeni olan bu nəzəriyyənin təsdiqi gələcək tədqiqatlardan asılıdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi yeniliklər ümumiləşdirilmişdir.

– Urmiya hövzəsinin ilk kütləvi məskunlaşması e.ə. VI minilliyin ortalarında (Son Neolit) Zaqrosun yarımköçəri maldar qəbilələrinin mövsümi yaşayış yerlərini tərk edərək münbit düzən ərazilərə miqrasiyası hesabına baş vermişdir. Növbəti minilliyin sonlarında (Eneolit) hövzənin ictimai həyatında iki fərqli arxeoloji

[99] Grayson, Albert. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Assyrian Rulers of the Third and Second Millennium BC (to 1115 BC). Vol. 1. / A.Greyson. – University of Toronto Press – 1988. – pp.134, 235..

mədəniyyətin – Hacı Firuztəpə və Dəlmətəpə – üstün mövqeyi müşahidə olunur.

– E.ə. III minilliyin əvvəllərində hövzə ikinci kütləvi miqrasiyaya məruz qalır. Naxçıvan və Şərqi Anadolu regionundan Kür-Araz arxeoloji mədəniyyətinin daşıyıcılarının (Babil ədəbi ənənəsi onları "umman manda") axını ilə hövzədə köhnə arxeoloji mədəniyyətlərin tənəzzülü müşahidə olunur və Tunc dövrü başlanır. Şumerlilərin Uruk mədəniyyətinin təsiri ilə yaranan Aratta və Hamazi şəhər-dövlətləri tənəzzülə uğrayan mərkəzlərdən olmuşlar. Aratta qismən də olsa Azərbaycanın tarixi cənub torpaqlarını əhatə edən ilk siyasi qurum olmuşdur.

– E.ə. XXIII əsrdə "umman manda" toplumunun ikinci miqrasiyası hövzə sakinlərinin tayfa birliklərində və hərbi koalisiyalarda birləşmək meyillərinə təkan vermişdir. Hərbi demokratiyanın aktiv fazasında lullubilərin və qutilərin də qoşulduğu koalisiya qüvvələri Cənubi Mesopotamiya şəhərlərinə qarət məqsədli yürüşlər edirdilər. Mütəmadi yürüşlər Akkad imperiyasının süqutu, Mesopotamiyanın cənubunda qutilərin yarıməsirlik hakimiyyəti ilə nəticələnmişdir.

– Qutilərin Mesopotamiyanın cənubunda ağalığı devrildikdən sonra Cənubi Urmiya hövzəsi Şumer-Ur dövlətinin və Elamlıların Simaşki konqlomeratının tərkibinə qatılmışdır.

– E.ə. XVIII əsrdə Urmiya hövzəsindən cənub-qərbdə (Raniyə və Uşnu-Suilduz ovalıqlarında) etno-genetik baxımdan hurrilərə qohum olan turukkuların siyasi birliklərinin hərbi fəallığının artması qutilərlə ərazi münaqişələrinə səbəb olur. Dağınıq icmalar halında yaşayan hövzə sakinlərinin vahid hərbi-siyasi bloklarda birləşə bilməmələrini fürsət bilən Aşşur, Babil, Elam kimi güclü dövlətlər manipulyasiya etməklə bölgəyə siyasi nəzarətə sahiblənməyə çalışırdılar.

– E.ə. II miniliiyin ikinci yarısında (hərbi demokratiyanın ikinci fazası) qutilərin Şərqi Anadoluda məskunlaşan qrupu qonşuluqdakı hurrimənşəli siyasi mərkəzlərlə Aşşur dövlətinin işğalçı siyasətinə qarşı hərbi koalisiyalarda birləşirdilər. Minilliyin sonlarında Urmiya hövzəsi yeni etnik qrupun – Babilistanda siyasi hakimiyyətdən məhrum olan kaşşuların, yayıldığı bölgəyə çevrilir,

lullubilər və turukkular siyasi arenadan silinir, qutilər yarımüstəqil formada varlıqlarını davam etdirirlər. Hövzənin yerli etnoslarının təkrar konsolidasiyası e.ə. IX yüzilliyin əvvəllərində Aşşur və Urartu kimi dövlətlərlə mübarizədə regionun siyasi proseslərinə təsir etmək iqtidarında olan Manna dövlətinin meydana gəlməsi ilə nəticələnir.

– Dillərində mətn qalmadığından Urmiya hövzəsi sakinlərinin etno-genetik və dil mənsubiyyəti haqqında dəqiq fikir söyləmək olmur. Onomastik material Şumer, Akkad və Elam kimi əcnəbi dillərin orfoqrafik formalarında çatdığından hövzədəki aborigen dillərin fonoloji strukturunun rekonstruksiyası mübahisə predmeti olaraq qalır. Şərti olaraq qutiləri və turukkuları hurridilli toplumlar qrupuna şamil etmək olar.

– Urmiya hövzəsi tayfaları Azərbaycanın təkcə siyasi tarixində deyil, xalq kimi təkamülümüzdə, dilimizin lüğət fondunun zənginləşməsində müstəsna yer tuturlar. Onların qonşuları ilə hərbi qarşıdurmaları iqtisadi, ticari və mədəni sferalarda əlaqələrlə müşayiət olunduğundan tərəflər arasında qarşılıqlı söz mübadiləsi baş verirdi. Dilimizin lüğət fondunda onlarla şumermənşəli, akkadmənşəli, elammənşəli, hurrimənşəli sözlər var. Bu sözlərin dövrümüzədək yaşaması həmin xalqlarla təmasda olan Urmiya hövzəsi etnosları vasitəsilə mümkün olmuşdur.

## Dissertasiyanın əsas məzmunu iddiaçının dərc olunmuş aşağıdakı əsərlərində əksini tapıb.


1. "Azərbaycan diplomatiyasının miladdan öncəki tarixindən" // - Bakı: AMEA Tarix İnstitutu Elmi əsərlər, - 2011, cild 36-37, -s. 49-54.
2. "Marağa şəhərinin tarixində skiflərin roluna dair" // -Bakı: AMEA Tarix İnstitutu. Elmi əsərlər, - 2012, cild 41-43, -s.3-14.
3. "Alban tayfalarının erkən tarixi Ön Asiyanın mixi yazılarında" // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2016, 1, s.98-108.

4. “Особенности применения знаков-сосудов в раннеэламских надписях” // - Москва: Вопросы эпиграфики. -2016, Выпуск IX. Материалы Международной Конференции, - с.27-39.
5. “Кутийская область Губин” / - Махачкала: Османовские чтения. Сборник материалов II Международной научной конференции. - 12 октября 2017 г., -с.65-70.
6. “Su adamları” və Simaşki dövlətinin Azərbaycan tarixində yeri” // Bakı: BDU İlahiyat fakultəsinin elmi məcmuəsi. - 2017, № 27, -s. 75-87.
7. “Quti tayfalarının yayıldığı areal” // Bakı: AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, -2017, № 3, -s.20-28.
8. “Lullubilərin və qutilərin etnik adlarına dair” // Bakı: Tarix, insan və cəmiyyət, -2017, № 4 (19), -s.86-93.
9. “Путь в Аратту” // Bakı: Tarix İnstitutu. Elmi əsərlər, -2017, cild 68, -с.3-13.
10. “Kaspilərin etnik tarixindən” // Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, -2017, -s.134-141.
11. “Tunc dövrünün hakimiyyət rəmzi silahlarında tariximizin izləri" // Bakı: Azərbaycan Arxeologiyası, -2017, cild 20, № 2, -s.52-56.
12. “Urmiya hövzəsində istehsal təsərrüfatının ilk mərhələləri” // Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, -2017, № 1, -s.78-89.
13. “Qutilərin Şumerdə sonuncu döyüşü” // Bakı: Milli təhlükəsizlik və hərbi elmlər. Elmi-praktik jurnal, -2017, cild 3, № 3, -s. 34-37.
14. “Turukkular” / Bakı: AMEA həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir Şərqşünaslığın aktual problemləri” (“Z.Bünyadov qiraətləri) mövzusunda Beynəlxalq Elmi konfrans. -2017-ci il, 16-17 oktyabr, 2017, -s. 132-142.
15. “Qutilərin Şumerdə inzibati idarəçiliyinin xüsusiyyətləri” // Bakı: Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, -2018, № 3(63), -s. 253-260.
16. “Письменные сведения о кутийских пленных и рабах” / Грозный: Этногенез и этническая история народов Кавказа. Материалы I Международного нахского научного

конгресса, -2018, 11-12 сентябрь, -с.142-148.
17. “Asur metinlerinde Alzi krallığı ve muşklar” // Ankara: Akademik Tarih ve Düşünce Dergisi, -2018, 5 (17 Ek), -s.219-229.
18. “Кто был третьим правителем Кутиума” // Москва-Магнитогорск-Новосибирск: Проблемы истории, филологии, культуры, -2018, 4 (62), -с.42-48.
19. “Simaşki çarlığının sakinləri” / Bakı: “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda I beynəlxalq elmi konfrans. Beynəlxalq elmi kofransın materialları, -2018, 29-30 oktyabr, -s.346-350.
20. “О религиозных представлениях племён Приурмийской зоны (XXIII-VIII вв. до н.э.)” // Махачкала: Вестник Дагестанского Государственного Университета. Серия 2. Гуманитарные науки, -2018, выпуск 4, том 33, -с.25-31.
21. “Из истории Аванской «династии» Элама” // Bakı: Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal, -2018, № 2, -с. 30-50.
22. “Из ранней истории кутийской области Навар/Намар” // Ankara: Akademik Tarih ve Düşünce Dergisi, -2018, 5 (17 Ek), -s.2522-2540.
23. “Kür-Araz mədəniyyətinin daşıyıcıları” // Naxçıvan: AMEA Naxçıvan bölməsisi Xəbərlər. İctimai və humanitar elmlər seriyası, -2019, № 1, -s.31-38.
24. “О времени правления Аванского царя Кутик-Иншушинака” // Москва-Магнитогорск-Новосибирск: Проблемы истории, филологии, культуры, -2019, 3 (65), -с.20-33.
25. “Из политической истории кутиев” // Maxaçkala: Вестник Дагестанского Государственного Университета, Серия 2. Гуманитарные науки, Выпуск 1, том 34, -2019, -с.7-17.
26. “Lullubilərin etnik xüsusiyyətlərinə dair” // Bakı: Tarix İnstitutu. Elmi əsərlər, -2019, cild 78, -s.3-12.
27. “Lullubilərin qonşuları ilə qarşılıqlı münasibətləri tarixindən // Bakı: Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal, -2019, № 3 (26), -s.19-32.
28. “Elam dilinin “türmənşəli” sözləri haqqında” // Bakı: AMEA Sosial elmlər, -2019, № 2, -s.6-12.

29. “Кутии в клинописных источниках Двуречья” / Bakı: Akademik İqrar Əliyev. Anadan olmasının 95 illiyinə həsr olunmuş məqalələr toplusu. Beynəlxalq Konfransın materialları. -2019, -c. 249-278.
30. “Qədim dövlətlərin idarəçiliyində şəxsiyyətin və kollegial orqanların roluna dair” / Mingəçevir: Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar. Respublika Elmi Konfransının materialları. Mingəçevir dövlət universiteti, -2019, 6-7 dekabr, -s. 92-94.
31. “Заметки о кутийском языке и ономастике” // Москва: Вопросы истории, -2020, № 2, -с.83-95.
32. “Azərbaycanın ilk hərbçi qadınları mixi yazılarda” // Naxçıvan: AMEA Naxçıvan bölməsisi Xəbərlər. İctimai və humanitar elmlər seriyası, -2020, cild 16, № 1, -s.28-33.
33. “К уточнению прочтения трех линейных надписей Эламского правителя Куктик-Иншушинака” // Москва-Магнитогорск-Новосибирск: Проблемы истории, филологии, культуры, -2021, № 4 (74), -с.286-296.
34. “Manna hökmdarı İranzu və varisləri haqqında” // Mingəçevir: Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər. I Beynəlxalq elmi konfransın materialları. 10-11 dekabr 2021-ci il. I cild. Mingəçevir dövlət universiteti, -2021, -s. 116-118.
35. “Urtehi ölkəsi: Urartu ekspansiyasının şimal-şərq istiqamətində sonuncu hədəf” // Bakı: AMEA Sosial elmlər, -2022, № 1, -s.20-25.
36. “Dünya daşqını şumerlilərin tarixi və mifoloji təsəvvürlərində” // Bakı: Sosial elmlər, -2023, № 2, -s.13-24.
37. “Naxçıvan bölgesinin iki şehri hakkında Asur metinleri / Ankara: XIX Türk Tarih Kongresi, 3-7 ekim 2022, -2024, -s.89-96.
38. “Ön Asiyanın mixi yazı sistemləri və relikt dilləri.” Bakı: AMEA A.A.Bakıxanov adına Tarix institutu. -2021, -236 s.

Dissertasiyanın müdafiəsi 15 may 2025-ci il tarixində saat $10^{00}$-da Azərbaycan Milli Elmlər Akdemiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED. 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ. 1073, Bakı şəhəri, H. Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akdemiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akdemiyası A.A.Bakıxanov adına Tarix və Ertnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 Aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.04.2025

Kağızın formatı: A5

Həcmi: 96835

Tiraj: 100